Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 255 (7982) ÇƏRŞƏNBƏ AXŞAMI, 13 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## Qafqazın ən böyük investisiya və sosialyönümlü büdcəsi

### *İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq 2019-cu ildə də sosial-iqtisadi layihələr icra ediləcək*

İqtisadi baxımdan özünü tamamilə təmin edən və ciddi maliyyə çətinliyi olmayan müstəqil Azərbaycan 2018-ci ili də uğurla başa vurmaqdadır. Ölkədə son 10 ay ərzində həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində sosial-iqtisadi inkişafın dayanıqlığı təmin olunub.

Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli yüksəlişi istiqamətində həyata keçirilən çoxşaxəli islahatlar, qeyri-neft ixracının artırılması üzrə kompleks tədbirlər sayəsində əldə edilən uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2019-cu ildə də öz inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

*28 dəfə artan valyuta ehtiyatları*

Bu bir həqiqətdir ki, Azərbaycan son 15 ildə dünyanın heç bir dövlətinə müəssər olmayan sürətli inkişaf yolu keçib. 2004-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkənin valyuta ehtiyatlarının 28 dəfə çoxalaraq 45 milyard dollara yüksəlməsi, iqtisadiyyata 250 milyon dollar investisiyanın yatırılması bunu təsdiq edən ən vacib faktlardır. İnkişaf səviyyəsini xarakterizə edən bütün əsas göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşması Azərbaycanın regionda ən güclü iqtisadi potensiala malik olan ölkəyə çevrildiyini sübut edir.

Bütün bunları şərtləndirən amil isə əlbəttə ki, iqtisadi müstəqillikdir. Bu müstəqillik sayəsində Azərbaycan iqtisadiyyatının xarici kreditlərdən asılılığı tam aradan qaldırılıb. Dövlət nəinki kreditlərin alınmasını dayandırıb, hətta bəzi ölkələrə kreditlər verməsinə başlayıb. Bir vaxtlar öz əhalisini elektrik enerjisi ilə təmin edə bilməyən Azərbaycan indi bu sahə üzrə ixracatçıya çevrilib. Təkcə bu ilin doqquz ayında 50 milyon dollardan çox həcmdə elektrik enerjisi ixracı bunun əyani sübutudur.

Azərbaycanın həyata keçirdiyi beynəlxalq transmilli layihələr - Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi", iştirakçısı olduğu Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi nəinki bölgədə, dünya miqyasında da güclü nəqliyyat-tranzit mərkəzinə çevirməkdədir.

*Gələn ilin dövlət büdcəsinin xərcləri artırılır*

Əvvəlki illərdə olduğu kimi, 2018-ci ilin ötən 10 ayı ərzində də makroiqtisadi sabitliyin bərqərar olunması, struktur və institusional islahatların sürətləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Görülən işlər, həyata keçirilən sosial-iqtisadi layihələr, iqtisadiyyata yatırılan investisiyalar, regionların inkişafı ilə bağlı hazırlanan (2019-2023-cü illər) yeni dövlət proqramı onu deməyə əsas verir ki, gələn il də Azərbaycanda bütün sahələr üzrə inkişaf müşahidə olunacaq. Bu, gələn ilin dövlət büdcəsi zərfində də öz əksini tapıb.

Öncə onu vurğulayaq ki, bu gündən Milli Məclisdə gələn ilin dövlət büdcəsinin müzakirəsi başlanır.

2019-cu il dövlət büdcəsinin gəlirləri 22 917,5 milyon manat, xərcləri 24 780,1 milyon manat proqnozlaşdırılır. Göründüyü kimi büdcənin xərcləri artırılır. "2019-cu ilin dövlət büdcəsi haqqında" qanun layihəsində göstərilir ki, xərclərin artımının əsas səbəbi 2018-ci ildə dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlarda çalışan işçilərin əməkhaqlarının və bəzi sosial müavinət və təqaüdlərin məbləğlərinin, məktəbəqədər təhsil müəssisələrində ərzaq məhsullarının alınması xərclərinin artması, ezamiyyə xərclərinin, mühafizə xərclərinin, müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənişlərin artması ilə bağlı olub.

*Ardı 5-ci səh.*

## Xidmətlərin həyata keçirilməsində kommunikasiya texnologiyalarından istifadə dövlət siyasətinin prioritetlərindəndir



Noyabrın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "Elektron Hökumətin İnkişafı Mərkəzi"nin inzibati binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlət başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev binada yaradılan şərait barədə məlumat verdilər.



Qeyd edək ki, Nərimanov rayonu, Atatürk prospekti 89 ünvanında yerləşən beşmərtəbəli inzibati binada "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

"İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "İNNOLAND" Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Buradakı "Kovörkinq" mərkəzi startaplar, proqramçılar, innovasiyalar sahəsində tək və ya kiçik komanda ilə işləyən şəxslər üçün sərfəli və bir çox imkanları özündə birləşdirən iş yeridir. "İNNOLAND"da fəaliyyət göstərəcək "Kovörkinq" mərkəzi həftənin 7 günü 24 saat giriş imkanına, yüksək sürətli internetə, vahid məlumat köşkünə, mentor dəstəyinə malikdir.

İT Təlim-Tədris Mərkəzi isə gənclərə proqramlaşdırma və informasiya texnologiyaları üzrə biliklərin öyrədildiyi, kodlaşdırma bacarıqlarının verildiyi məkandır.

*Ardı 2-ci səh.*

## *Hikmət HACIYEV:*

## "Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır və öz daxili işlərinə də digər dövlətlərin qarışmasını heç zaman qəbul edə bilməz"

***Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyevin Trend-ə müsahibəsi***

*- Kütləvi informasiya vasitələrində Norveçin Azərbaycanda səfirliyinin fəaliyyətinin dayandırılması barədə məlumat verildi. Bu barədə nə deyərdiniz?*

- Bu məsələyə xüsusi bir əhəmiyyət verməyə lüzum görmürük. Hər bir ölkə öz xarici siyasətini müəyyən edərkən səfirlik və ya digər statuslu diplomatik nümayəndəliyin açılması və ya bağlanması barədə qərar qəbul edir. Norveçin Bakıda akkreditə olunmuş səfirliyinin fəaliyyətini dayandırması Norveç hökumətinin öz işidir. Bu, sıradan olan adi bir haldır və bizdə hər hansı təəssüf doğurmur.

Norveçin Azərbaycanda səfirliyi 1998-ci ilin iyununda təsis edilib və əsas məqsəd o zaman "Statoil" adı ilə fəaliyyət göstərən Norveçin neft şirkətinin fəaliyyətini yüngülləşdirmək və onun biznes maraqlarını təşviq etmək idi. Azərbaycanın Norveçdə səfirliyi açılmayıb və açıq desək, belə bir fikir də olmayıb. Azərbaycanın İsveçdəki səfirliyi qeyri-rezident əsasda, eyni zamanda Norveçdə də akkreditasiya olunub.

Azərbaycanda iqamətgahı Bakıda olmaqla 65 ölkənin səfirliyi, 20 beynəlxalq təşkilatın nümayəndəliyi və 12 fəxri konsulluq akkreditasiya olunub. Bunların içərisində 25 səfirlik Avropa ölkələrinə məxsusdur. Həmçinin ölkəmizdə 4 baş konsulluq fəaliyyət göstərir. Son olaraq Portuqaliya, Venesuela, Peru və Kosta-Rikanın Azərbaycanda səfirlikləri açılıb. Azərbaycanın 70 səfirliyi və diplomatik ofisi, beynəlxalq təşkilatlar yanında 5 nümayəndəliyi, 9 baş konsulluğu və 14 fəxri konsulluğu fəaliyyət göstərir. Avropa ölkələrində ölkəmizin otuza yaxın səfirlik və diplomatik nümayəndəliyi akkreditə olunub.

*Ardı 2-ci səh.*

## Milli mədəni intibahın parlaq üfüqləri

### Bu, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir

"Hər bir ölkənin mədəni həyatı onun səviyyəsini göstərir. Azərbaycanın müstəqil ölkə kimi yaşaması üçün mədəniyyət, incəsənət çox böyük əhəmiyyət kəsb edir... İqtisadi cəhətdən nə qədər zəngin olursa-olsun, əgər mədəniyyət, incəsənət inkişaf etmirsə, ölkə uğurla inkişaf edə bilməz".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözləri ölkəmizin mədəniyyətinin qədim və zəngin irsini, keçdiyi böyük inkişaf yolunu diqqətə çatdırmaqla yanaşı, mədəniyyətə yüksək dövlət qayğısının vacibliyini bir daha vurğulayır. Əslində, mədəniyyətin inkişafı bütün zamanlarda ona münasibətdən asılı olub və bu gün də belədir. Mədəniyyət davamlı prosesdir və çox zaman dövrün ictimai-siyasi dalğalanmaları fonunda çətin sınaqlardan keçməli olur. Belə şəraitdə bu sahəyə dövlət səviyyəsində diqqətin göstərilməsi xüsusilə əhəmiyyət kəsb edir. Azərbaycan mədəniyyətinin inkişaf tarixinə nəzər salsaq, həmin tarixin özəlliklə son yarım əsrə yaxın dövrünü təhlil etsək, bunu yəqin edə bilərik.

Mədəniyyətimizin sistemli inkişafı, dünya səviyyəsində tanınması onun böyük himayədarı, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin respublikaya rəhbərlik etdiyi ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın bir çox sahələrdə gələcək inkişafının möhkəm əsasları yaradılmış, o cümlədən mədəniyyətimiz özünün intibah dövrünü yaşamışdır. Paytaxtdan ucqarlaradək yüzlərlə kinoteatr, klub, mədəniyyət evi, kitabxana, muzeyin inşa edilməsi, kino, musiqi, teatr, rəssamlıq, memarlıq, heykəltəraşlıq və digər sahələrdə əldə edilən saysız nailiyyətlər həmin dövrdə mədəniyyətimizin inkişafı ilə bağlı görülən misilsiz işlərə nümunədir.



Mədəniyyətimizin himayədarı müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də bu sahəyə qayğısını əsirgəmədi. 80-ci illərin sonu - 90-cı illərin əvvəli yaşanan ictimai-siyasi böhran mədəniyyət sahəsinə də təsirsiz ötüşməmişdi. Bu baxımdan ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycan mədəniyyətinə də yeni nəfəs gəldi. Sonrakı 10 il ərzində sənətə və sənətkara diqqətin artması, görkəmli mədəniyyət xadimlərinin fəxri adlara, Prezident təqaüdünə, müxtəlif mükafatlara layiq görülməsi, dünyasını dəyişən şəxsiyyətlərin yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, ev-muzeylərinin yaradılması - bir sözlə, Azərbaycan mədəniyyətinin inkişafı naminə qəbul edilən qərarlar, görülən işlər bu dahi siyasətçinin adı ilə bağlıdır. Ümummilli lider deyirdi: "Xalqımız öz mədəniyyəti, elmi ilə yüksəlibdir.

*Ardı 4-cü səh.*

## *Erməni KİV:*

## "Paşinyan, cavab ver: Azərbaycan təşkilatın üzvü olmadan bizi baş katiblikdən necə uzaqlaşdırdı?"

***Ermənistan mətbuatı və analitikləri ölkələrinin KTMT-nin baş katibliyindən təcridini Prezident İlham Əliyevin və onun dostlarının qələbəsi kimi qiymətləndirdi***

Azərbaycanın işğalçı Ermənistana qarşı həyata keçirdiyi təcrid siyasəti bu ölkənin tənəzzülünü daha sürətli hala gətirib. Ermənistanın iflası təkcə iqtisadi müstəvidə yox, siyasi, diplomatik sferada da özünü qabarıq şəkildə büruzə verməkdədir.

İlham Əliyev diplomatiyasının beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı dövlət olduğunu tam şəkildə sübuta yetirməsi və bu sahə üzrə fəaliyyətini daha da genişləndirməsi qarşı tərəfdə böyük narahatlığa, təşvişə yol açıb. Bunun daha bir real təsdiqi yaxın günlərdə Astanada keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dövlət başçılarının zirvə toplantısında özünü kifayət qədər qabarıq şəkildə büruzə verdi.

*Ardı 7-ci səh.*



# Xidmətlərin həyata keçirilməsində kommunikasiya texnologiyalarından istifadə dövlət siyasətinin prioritetlərindəndir













*Əvvəli 1-ci səh.*

Mərkəzdə süni intellekt, robotlaşdırma və onları dəstəkləyən proqramlaşdırma dillərinə üstünlük verilir. Dərslər "bootcamp" formatında üç ay ərzində hər gün keçirilir. İnkubasiya dövründə startaplara ideyalarının formalaşdırılmasına kömək göstərilir. Bu müddətdə əvvəlcədən müəyyənləşdirilmiş istiqamətlər üzrə ildə 4 dəfə ideya müsabiqəsi elan olunur. Müvafiq meyarlara əsasən müsabiqəyə əvvəlcədən müəyyənləşdirilmiş say üzrə ideya qəbul edilir. İnkubasiya dövründə uğurla formalaşmış ideyaların ilkin versiyaları test edilməsi, prototiplərin hazırlanması üçün akselerasiya mərhələsinə keçirilir. Bu mərhələdə komandaya mütəmadi şəkildə mentor dəstəyi göstərilir. Mərkəzdə fəaliyyət göstərən startaplar İnkubasiya və akselerasiya dövründə "İNNOLAND"in innovasiyalar və İKT sahəsində ümumi fəaliyyətindən də yararlanacaqlar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada innovativ layihələrlə də tanış oldular.

Bildirildi ki, "Wattbooster" qurğusu elektrik enerjisinin faydalı iş əmsalını artırır, elektromaqnit sahəsinin hesabına daha çox enerji istehsal edir. Nəticədə elektrik avadanlıqlarının enerji sərfiyyatına qənaət olunur. Hələlik bu qurğu mobil operatorların antennalarının elektrik enerjisinin sərfiyyatının azaldılması üçün nəzərdə tutulub.

"Lia" adlı spinal qurğu onurğa sütununun vəziyyətinə nəzarət edir və insanda düzgün qamət yaradır. Mikrokontroller və iki sensordan ibarət olan, çiyindən asılan "Lia" minimum 3 həftədən sonra heç bir narahatlıq hissi doğurmadan onurğa sütununu düzəltməyə kömək edir. Sensor çiyinlərin vəziyyətini müəyyən edərək duruşun düzgünlüyünü yoxlayır. İstifadəçinin duruşu səhv vəziyyətdə olduğu halda, telefonuna bildiriş gəlir və qaməti düzəltmək yada salınır.

"Safee" adlı ixtira yolda təhlükəsiz şəkildə, əsasən axşam vaxtı velosiped sürmək üçün dizayn edilib. Cihaz təhlükəsizlik işarələrini velosiped sürücüsünün bel nahiyəsinə əks etdirir. Nadir cihaz istehsal olunduğu ilk gündən dünya mediasında böyük maraq doğurub. Belə ki, BBC, Mirror, Yahoo və digər media qurumlarında layihə haqqında məqalələr dərc edilib və o, bir neçə qlobal mükafata layiq görülüb. Yaxın gələcəkdə kütləvi istehsalına başlanılacaq bu cihaz üçün bir sıra ölkələrdən yüzlərlə sifariş daxil olub.

"Wetravel" isə turizm şirkətləri üçün ödəmə şəbəkəsidir. Şəbəkə istifadəçisi olan şirkətlər bir-birləri ilə pul mübadiləsini ən aşağı komissiya ilə həyata keçirə bilərlər. Hotellər, hostellər, aviaşirkətlər, səyahət agentlikləri və bu qəbildən digər şirkətlər platformanın imkanlarından yararlana bilərlər. "Wetravel" istifadəçilərə səyyah məlumatının, ödənişlərin asanlıqla toplanması, ən aşağı məzənnə ilə beynəlxalq ödənişlər kimi imkan yaradır. Platforma vasitəsilə 80-dən çox ölkəyə minlərlə səfər təşkil edilib.

"Namo Media" onlayn reklam idarəetmə sistemidir. Fox, ESPN kimi böyük xəbər saytlarının reklam idarəetməsi bu sistemlə həyata keçirilir. "Namo Media" 2014-cü ildə Twitter şirkəti tərəfindən 50 milyon dollar dəyərində qiymətləndirilərək alınıb.

Bu startaplar azərbaycanlı təsisçilər tərəfindən hazırlanıb və qlobal bazarı hədəfləyir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "Elektron hökumət"in yeni inkişaf konsepsiyası barədə də ətraflı məlumat verildi.

Xatırladaq ki, dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illərdə bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülüb. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olub, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilib. Bununla yanaşı, son illər vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib. Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti yaranmışdı. Bu işlərin sürətlə həyata keçirilməsi üçün Prezident İlham Əliyev 2018-ci il martın 14-də "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" fərman imzalayıb. Bu fərmanla elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs fəaliyyətə başlayıb.

# <u>*Kreyq RİDİ:*</u> "Azərbaycan mühüm idman dövlətidir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi və bu tədbirlərdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev tədbir iştirakçılarının Azərbaycana gəlişinin ölkəmizi daha da yaxından tanıması və uğurlu əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Ölkəmizə səfərinin onun üçün çox xoş olduğunu bildirən Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridi Azərbaycan tərəfinin bu tədbirlərin təşkilinə böyük dəstək göstərdiyinə görə təşəkkürünü ifadə etdi. O, tədbirlərdə müxtəlif ölkələrin nümayəndələrinin və ictimai xadimlərin iştirakının əhəmiyyətini vurğuladı.

Kreyq Ridi azərbaycanlı həmkarları ilə dopinq əleyhinə mübarizə sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi apardıqlarını deyərək, Azərbaycanda Milli Antidopinq Agentliyinin yaradılmasını dopinq əleyhinə mübarizə işində irəliyə doğru çox mühüm addım kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın mühüm idman dövləti və güclü antidopinq təşkilatına malik olduğu nəzərə alınaraq bütün bu işlər mühüm əhəmiyyət kəsb edir.

Dövlət başçısı Azərbaycan Milli Antidopinq Agentliyinin yaradılması işində Kreyq Ridinin rəhbərlik etdiyi Ümumdünya Antidopinq Agentliyinin dəstəyinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda iki il bundan öncə belə bir qurumun yaradılmasının idmanın, Olimpiya hərəkatının inkişafında mühüm addım olduğunu vurğuladı və eyni zamanda, bunu idman sahəsində beynəlxalq əməkdaşlığa töhfə kimi dəyərləndirdi. Dövlət başçısı ölkəmizdə Milli Antidopinq Agentliyinin beynəlxalq standartlara uyğun şəkildə fəaliyyət göstərdiyini və tam akkreditə olunduğunu dedi. Azərbaycanda idmanın inkişafına böyük önəm verildiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə keçirilən mühüm beynəlxalq idman yarışları - Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər tədbirlər və eləcə də keçirilməsi nəzərdə tutulan 15-ci Avropa Olimpiya Gənclər Festivalı Azərbaycanın bu sahədə əməkdaşlıq siyasətini və imkanlarını nümayiş etdirir. Dövlət başçısı ölkəmizin idman sahəsində böyük nailiyyətlər əldə etməsini, o cümlədən idmançılarımızın Rio Olimpiadasında 18 medal qazanaraq medalların sayına görə 14-cü yeri tutduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın antidopinq məsələləri ilə bağlı Ümumdünya Antidopinq Agentliyi ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyinə əminliyini ifadə etdi.

# Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi üçün 3,5 milyon manat ayrılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi barədə sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, sərəncama əsasən, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan xərclərdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi üçün 3,5 milyon manat vəsait ayrılıb.

# Slovakiyanın Baş naziri Peter Pelleqrini Azərbaycana rəsmi səfərə gəlib




Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini noyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Slovakiya Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hərbi orkestrin ifasında Slovakiyanın və Azərbaycanın dövlət himnləri səslənib. Slovakiyanın Baş naziri Peter Pelleqrinini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılmasına verdikləri töhfəyə və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Abdullayev Akif Hacı oğlu
Feyzullayev Tural Hicrət oğlu
İsayev İdris Balakişi oğlu
Qasımlı Vüsal Əfras oğlu
Məmmədov Sahib Əli oğlu
Lətifov Ragim Əhəd oğlu
Rüstəmli Elsevər Mövlud oğlu
Vəliyev İlkin Etibar oğlu
Vəliyev Sərvər Yaqub oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Qədirov Ayaz Tofiq oğlu
Məmmədova Fərəh Fərahim qızı
Sadıqov Rafiq Fazil oğlu
Şahbazov Famil Fariz oğlu
Şirinov Şamil Vidadi oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2018-ci il*

# A.S.Məmmədovun Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2018-ci il*

# <u>*Hikmət HACIYEV:*</u> "Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır və öz daxili işlərinə də digər dövlətlərin qarışmasını heç zaman qəbul edə bilməz"

*Əvvəli 1-ci səh.*

*- Norveçin Azərbaycanda səfirliyinin fəaliyyəti birmənalı olmayıb, Azərbaycanın daxili işlərinə qarışmaq və bu səbəbdən vaxtilə Norveç səfirinin persona non-qrata elan edilməsi kimi məsələlər gündəmə gəlib. Bu barədə nə deyərdiniz?*

- Bu, keçmişdə qalan məsələdir, amma qeyri-hökumət təşkilatı fəaliyyəti ilə diplomatiyanı qarışıq salan səfir və diplomatların olması faktları mövcuddur.

Əvvəlki illərdə Norveçin Azərbaycanda səfiri işləmiş Steynar Gil adlı şəxs diplomatik protokol qaydalarına uyğun gəlməyən və diplomatik münasibətlər haqqında Vyana Konvensiyasını pozmaqla fəaliyyət göstərərək Azərbaycan və Norveç arasındakı əlaqələrə böyük zərbə vurub. Həmin şəxs səfir statusunu daşıdığı halda, Azərbaycanın daxili işlərinə müdaxilə etməyə cəhdlər göstərib və ikitərəfli əlaqələrlə məşğul olmaq əvəzinə,



müxalifətin mitinqlərində iştirak edərək digər bu qəbildən olan qeyri-legitim fəaliyyətləri həyata keçirib.

Nəticə etibarilə bu, ona gətirib çıxardı ki, Azərbaycan hökuməti onun ölkəmizdən çıxarılması haqqında məsələləri müzakirə etməyə başlamışdı. Yekunda Norveç hökuməti onu vaxtından əvvəl geri çağırdı. Norveçin ictimai-siyasi dairələrində və mediasında kənar qüvvələrin ölkənin daxili işlərinə təsiri və müdaxiləsinin xüsusi həssaslıqla qarşılandığının və daim öz suverenliyinin qorunmasına xüsusi əhəmiyyət verdiyinin fövqündə, görəsən, rəsmi Oslo belə bir davranışlı səfirin ölkədə fəaliyyətinə dözərdimi? Əlbəttə ki, xeyr.

Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır və öz daxili işlərinə də digər dövlətlərin qarışmasını heç zaman qəbul edə bilməz.

Azərbaycanın uğurlu xarici siyasəti var, məzmun və coğrafi baxımdan müqabil tərəfdaş ölkələrlə qarşılıqlı hörmət və bərabərhüquqlu prinsiplər əsasında ikitərəfli əlaqələrimiz davamlı olaraq inkişaf edir.

# <u>*XİN:*</u> "Ümid edirik, Paşinyan anlayır ki, Paris Sülh Forumundakı çıxışı Ermənistanın xarici siyasəti ilə tamamilə ziddir"

"Ümid edirik, Ermənistanın baş naziri vəzifəsini yerinə yetirən Nikol Paşinyan anlayır ki, Paris Sülh Forumunda etdiyi çıxış Ermənistan Respublikasının xarici siyasəti ilə tamamilə ziddiyyət təşkil edir. Məhz Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini, xüsusilə də güc tətbiq etməmək prinsipini pozaraq Azərbaycan ərazilərini işğal edib və tarixən Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlını öz evlərində yaşamaq hüququndan məhrum edib".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib: "Məgər öz müqəddəratını təyinetmə eyni bölgədə yaşayan digər etnik qruplara qarşı etnik təmizləmənin həyata keçirilməsi deməkdir? Məgər beynəlxalq hüququn aliliyi əraziləri işğal etmək və sonra da zor gücünə işğalın nəticələrini həll yolu kimi qəbul etdirmək deməkdir? Bu suallara elə Paşinyanın çıxışında istinad etdiyi fundamental prinsiplərin özü cavab verir. Bunun üçün BMT Nizamnaməsini və Helsinki Yekun Aktını oxumaq kifayətdir. Oxumaq istəməyənlər və ya oxuduqlarını anlamaq istəməyənlər üçün sitat gətiririk: "Dövlətlər xalqların bərabər hüquqları və öz müqəddəratını təyin etməsi hüququna hər zaman BMT Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun olaraq hörmət etməlidir". Beynəlxalq forumlarda çıxış edərək sülhdən, daha yaxşı gələcəkdən danışmaq, əlbəttə, yaxşıdır. Lakin ən vacibi sadəcə bəyanatlar verməklə kifayətlənməmək, verdiyin bəyanatlara uyğun davranmaqdır, hərəkət etməkdir. Bölgənin və Ermənistanın özünün daha yaxşı gələcəyi bilavasitə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalına son qoyulması və məcburi köçkünlərin öz evlərinə geri qayıtması ilə əlaqədardır".

XİN-in rəsmisi söyləyib ki, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Paris Sülh Forumunda iştirak edib və tədbirdən sonra forum çərçivəsində təsis edilmiş Sülh Kitabxanasına "Qarabağ həqiqətləri" adlı kitab təqdim edib. Nazir kitabda "Dünya unutmamalıdır ki, Ermənistan silahlı qüvvələrinin işğalçı əməlləri nəticəsində Azərbaycanda olduğu kimi, bu gün hələ də dünyada xalqlar öz doğma ərazilərindən zor gücünə qovularaq etnik təmizləməyə məruz qalırlar. Ermənistanın öz silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaq, Azərbaycanın sərhədlərinə hörmət etmək, bölgədə sülh və sabitliyi bərpa etməkdən başqa yolu yoxdur" sözlərini qeyd edib.

# Atəşkəs rejimi 28 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub. Azərbaycanın Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci və 15-ci bəndlərini rəhbər tutaraq, “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 867-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405; 2001, № 11, maddələr 689, 690, № 12, maddə 736; 2002, № 5, maddə 242; 2003, № 1, maddələr 11, 16, № 6, maddə 256; 2004, № 1, maddə 10, № 4, maddə 202, № 5, maddə 314, № 6, maddə 397; 2005, № 2, maddə 62; 2006, № 2, maddə 67, № 11, maddə 923, № 12, maddə 1005; 2007, № 11, maddələr 1053, 1082; 2008, № 5, maddə 354; 2009, № 6, maddə 410; 2010, № 3, maddə 173, № 4, maddələr 275, 276; 2011, № 2, maddə 71, № 12, maddə 1074; 2012, № 6, maddə 523; 2014, № 8, maddə 956, № 11, maddə 1376; 2015, № 2, maddələr 77, 88, № 5, maddə 485; 2017, № 1, maddə 3, № 5, maddə 707; 2018, № 1, maddə 28) 40-cı maddəsinin 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. “bələdiyyə əmlakının icarəyə” sözləri “icarəyə və istifadəyə” sözləri ilə əvəz edilsin;

2. “torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən açıq məkanda reklama görə daxil olan ödənişlər” sözləri “daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə bağlı ödəniş” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1260-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1260-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

## “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı tədbirlər və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.2. həmin qanunun 17-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına münasibətdə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.3. həmin qanunun 30.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

2. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1499) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.4-cü bəndə “23.1-ci,” sözlərindən sonra “30.3-cü,” sözləri əlavə edilsin;

2.2. 2.7-ci bəndə “qanunun” sözündən sonra “3.5-ci maddəsində (ikinci halda),” sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

“2.8-1. həmin qanunun 17-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına münasibətdə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. üç ay müddətində:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.3. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq, infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2018-ci il*

## “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168; 2012, № 11, maddə 1057; 2013, № 11, maddə 1313; 2015, № 11, maddə 1279; 2017, № 2, maddələr 141, 160; 2018, № 6, maddə 1157) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. dördüncü hissədə “müvafiq icra hakimiyyəti orqanlarına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin;

1.2. beşinci hissədə “müvafiq icra hakimiyyəti orqanlarından” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan)” sözləri ilə, “müvafiq icra hakimiyyəti orqanlarının” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)” sözləri ilə əvəz edilsin;

1.3. yeddinci hissəyə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

2. 4-cü maddənin yeddinci hissəsində “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin.

3. 5-ci maddə üzrə:

3.1. birinci hissəyə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

3.2. ikinci hissədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

4. 6-cı maddədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

5. 7-ci maddənin üçüncü hissəsinə birinci halda “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

6. 11-ci maddənin ikinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı ilə” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla)” sözləri ilə əvəz edilsin.

7. 12-ci maddə üzrə:

7.1. 12-ci maddənin birinci hissəsinin birinci cümləsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

7.2. 12-ci maddənin ikinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

8. 13-cü maddə üzrə:

8.1. birinci hissənin birinci cümləsində “müvafiq icra hakimiyyəti orqanlarına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə, “orqanlar” sözü “orqan (qurum)” sözləri ilə əvəz edilsin;

8.2. birinci hissənin ikinci cümləsində ikinci halda “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

8.3. ikinci hissənin ikinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

9. 14-cü maddə üzrə:

9.1. birinci hissədə “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin;

9.2. ikinci hissəyə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

10. 15-ci maddənin ikinci hissəsinin birinci cümləsində “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə, ikinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

11. 16-cı maddənin birinci hissəsinin ikinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

12. 17-ci maddənin ikinci hissəsində “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin.

13. 18-ci maddə üzrə:

13.1. birinci hissənin birinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

13.2. üçüncü hissənin ikinci cümləsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

14. 19-cu maddə üzrə:

14.1. ikinci hissədə “müvafiq icra hakimiyyəti orqanı ilə” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla)” sözləri ilə əvəz edilsin;

14.2. üçüncü hissənin ikinci cümləsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

15. 20-ci maddə üzrə:

15.1. birinci hissənin birinci cümləsində “müvafiq icra hakimiyyəti orqanında” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda)” sözləri ilə əvəz edilsin və ikinci cümləsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

15.2. ikinci hissədə “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin.

16. 21-ci maddə üzrə:

16.1. ikinci hissədə “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin;

16.2. üçüncü hissəyə “Müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

17. 23-cü maddə üzrə:

17.1. birinci hissədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

17.2. ikinci hissəyə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

18. 24-cü maddənin ikinci hissəsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

19. 25-ci maddə üzrə:

19.1. birinci hissənin birinci və ikinci cümlələrinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

19.2. altıncı hissədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

20. 26-cı maddənin birinci hissəsinə “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin.

21. 27-ci maddə üzrə:

21.1. ikinci hissəyə ikinci halda “müvafiq icra hakimiyyəti orqanının” sözlərindən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin;

21.2. üçüncü hissənin üçüncü cümləsində “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1255-VQD nömrəli Qanununun tətbiqi və “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1255-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 386; 2002, № 1, maddə 14; 2006, № 9, maddə 743, № 11, maddə 943; 2007, № 11, maddə 1115; 2008, № 1, maddə 8, № 6, maddə 498; 2010, № 8, maddə 723; 2013, № 3, maddə 241, № 5, maddə 498; 2015, № 9, maddə 1004; 2016, № 3, maddə 463) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin dördüncü hissəsində, beşinci hissəsində hər üç halda və yeddinci hissəsində, 4-cü maddəsinin yeddinci hissəsində, 5-ci maddəsinin adında, birinci hissəsində hər iki halda və ikinci hissəsində hər iki halda, 6-cı maddəsində, 7-ci maddəsinin ikinci hissəsində birinci halda və üçüncü hissəsində birinci və ikinci hallarda, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və ikinci hissəsində, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində hər iki halda, ikinci cümləsində hər iki halda və ikinci hissəsinin ikinci cümləsində, 14-cü maddəsinin birinci hissəsində hər iki halda və ikinci hissəsində, 15-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 16-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində, 17-ci maddəsinin ikinci hissəsində, 18-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və üçüncü hissəsinin ikinci cümləsində, 19-cu maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin ikinci cümləsində, 20-ci maddəsinin birinci hissəsinin birinci cümləsində hər iki halda və ikinci cümləsində, ikinci hissəsində hər iki halda və üçüncü hissəsinin üçüncü cümləsində, 21-ci maddəsinin birinci, ikinci və üçüncü hissələrində, 22-ci maddəsinin birinci hissəsində, 23-cü maddəsinin birinci və ikinci hissələrində, 24-cü maddəsinin ikinci hissəsində, 25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində, altıncı hissəsində hər iki halda, 26-cı maddəsinin birinci hissəsində və 27-ci maddəsinin ikinci hissəsində hər iki halda və üçüncü hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 4-cü maddəsinin səkkizinci hissəsində, 7-ci maddəsinin ikinci hissəsində ikinci halda və üçüncü hissəsində üçüncü halda, 16-cı maddəsinin birinci hissəsinin birinci cümləsində və üçüncü hissəsində, 22-ci maddəsinin ikinci hissəsində, 24-cü maddəsinin birinci hissəsində və 31-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin qanunun 23-cü maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix Etnoqrafiya qoruqları ərazisində isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.4. həmin qanunun 1-ci maddəsinin beşinci hissəsində ikinci halda və yeddinci hissəsində, 4-cü maddəsinin yeddinci hissəsində, 5-ci maddəsinin birinci hissəsində, 11-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, 13-cü maddəsinin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsinin ikinci cümləsində, 14-cü maddəsinin birinci və ikinci hissələrində, 15-ci maddəsinin ikinci hissəsinin birinci və ikinci cümlələrində, 17-ci maddəsinin ikinci hissəsində, 18-ci maddəsinin üçüncü hissəsinin ikinci cümləsində, 19-cu maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin ikinci cümləsində, 20-ci maddəsinin birinci hissəsinin birinci, ikinci cümlələrində və ikinci hissəsində, 21-ci maddəsinin ikinci və üçüncü hissələrində, 25-ci maddəsinin birinci hissəsinin birinci, ikinci cümlələrində və altıncı hissəsində, 26-cı maddəsinin birinci hissəsində, 27-ci maddəsinin ikinci hissəsində və üçüncü hissəsinin üçüncü cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.5. həmin qanunun 1-ci maddəsinin dördüncü hissəsində, 16-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində və 18-ci maddəsinin birinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, tabeliyindəki dövlət qoruqlarının ərazisində yerləşən abidələrə münasibətdə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində yerləşən abidələrə münasibətdə isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.6. həmin qanunun 1-ci maddəsinin beşinci hissəsində birinci halda, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində və 24-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və yerli icra hakimiyyəti orqanları, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.7. həmin qanunun 1-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirirlər;

2.8. həmin qanunun 5-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırmaqla), tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix Etnoqrafiya qoruqları ərazisində isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.9. həmin qanunun 6-cı maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini abidələrin siyahısının təsdiqi və daşınmaz abidələrin xəritələrinin hazırlanması hissəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti, abidələrin siyahıya və dövlət qeydiyyatına alınması və pasportlaşdırılması hissəsində isə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi həyata keçirirlər;

2.10. həmin qanunun 7-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tarix və mədəniyyət abidələrinin yerləşdiyi ərazinin yerli icra hakimiyyəti orqanları ilə birgə, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix Etnoqrafiya qoruqlarının ərazisində isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.11. həmin qanunun 8-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həyata keçirir;

2.12. həmin qanunun 12-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin rəyi əsasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.13. həmin qanunun 1-ci maddəsinin beşinci hissəsində, 5-ci maddəsinin adında, birinci və ikinci hissələrində, 7-ci maddəsinin ikinci və üçüncü hissələrində, 13-cü maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində, 14-cü maddəsinin birinci hissəsində, 20-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, ikinci hissəsində və üçüncü hissəsinin üçüncü cümləsində, 21-ci maddəsinin birinci hissəsində, 25-ci maddəsinin altıncı hissəsində və 27-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

# Milli mədəni intibahın parlaq üfüqləri

## Bu, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir



*Əvvəli 1-ci səh.*

Biz mədəniyyətə nə qədər diqqət yetirsək, qayğı göstərsək, mədəniyyət xadimlərinin yaradıcılığı üçün imkanlar yaratsaq, xalqımızı da o qədər yüksəldəcək, xalqımızın mənəviyyatını daha da yüksəklərə qaldıracağıq".

* * *

2003-cü ildən Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndərin dövlətçilik kursunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmiz dinamik inkişaf dövrünü yaşamaqdadır. Bu tərəqqi mədəniyyət sahəsində də yeni layihələrin, dövlət proqramlarının həyata keçirilməsi, müasir maddi-texniki bazanın, infrastrukturun yaradılması, yaradıcı fəaliyyətə stimul verilməsində də özünü göstərir. Prezident İlham Əliyevin respublikaya rəhbərliyi ilk illərdən tarixi-mədəni irsə bağlılıqla bərabər, modernləşmə, qabaqcıl dünya təcrübəsinin tətbiqi ilə müşayiət olunur. Möhtərəm Prezident mədəniyyətin xalqın taleyində əhəmiyyətini hər zaman yüksək qiymətləndirir: "Azərbaycan xalqının çox zəngin mədəniyyəti, tarixi vardır. Biz haqlı olaraq öz mədəniyyətimizlə fəxr edirik. Bu gün Azərbaycan dünyada öz mədəniyyəti, musiqisi, tarixi ilə tanınan bir ölkədir. Dünyanın müxtəlif yerlərində Azərbaycan günləri keçirilir. Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu artıq bütün dünya bilir. Azərbaycan cəmiyyəti həmişə mədəniyyətə çox bağlı olub və bu gün müstəqil Azərbaycan dövləti çox güclü əsaslar - tarixi, mədəni əsaslar, mənəvi dəyərlər üzərində qurulubdur".

Ölkə həyatının son on beş ilinə nəzər salanda, ötən dövrün mədəniyyət salnaməsini vərəqləyəndə, ürəkaçan mənzərə ilə qarşılaşırıq. Mədəniyyət obyektlərinin, ilk növbədə kütləvi nümayiş məkanları olan teatr və muzeylərin yüksək səviyyədə təmir-bərpası, ölkənin müasir inkişafını təcəssüm etdirən yeni mədəniyyət ocaqlarının yaradılması bu sahəyə göstərilən yüksək diqqət və qayğıdan xəbər verir.

Bu illər ərzində Prezident İlham Əliyev tərəfindən mədəniyyət sahəsi ilə bağlı 600-dən çox fərman və sərəncam imzalanıb. Dövlət başçısının sərəncamları ilə təsdiq olunan proqram sənədlərdən bir qismi icra olunub və ya yekunlaşmaqdadır ("Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı", "Azərbaycan kinosu 2008-2018-ci illərdə"), digərlərinin ("Azərbaycan teatrı 2009-2019-cu illərdə", "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı: 2014-2020") və s. icrası davam etdirilir.

Çağdaş dünyada mədəni irs, incəsənət xalqları tanıdan, insanları birləşdirən mühüm vasitələrdəndir. Azərbaycanın zəngin mədəniyyəti də ölkəmizdən çox-çox uzaqlarda uğurla təqdim və təbliğ olunur. Bu xüsusda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, mədəni irsimizin himayədarı Mehriban Əliyevanın müstəsna xidmətlərini qeyd etmək lazımdır. Mehriban xanımın 2004-cü ildə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi Azərbaycanın zəngin maddi və qeyri-maddi mədəni irs nümunələrinin dünyada tanıdılmasına yeni üfüqlər açdı. Azərbaycan muğam sənəti ilk olaraq UNESCO tərəfindən bəşəriyyətin mədəni irs xəzinəsinə daxil edildi. 2009-cu ildə Azərbaycanın aşıq sənəti və ölkəmizin yaxından iştirakı ilə beynəlxalq nominasiya kimi təqdim olunan Novruz bayramı, 2010-cu ildə xalça sənətimiz, 2012-ci ildə tar ifaçılığı, 2013-cü ildə Qarabağ atları üzərində çövkən milli oyunu, 2014-cü ildə kəlağayı sənəti, 2015-ci ildə Lahıc misgərlik sənəti, 2016-cı ildə ölkəmizin Türkiyə, İran, Qazaxıstan və Qırğızıstanla birgə təqdim etdiyi lavaş - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti, 2017-ci ildə milli mətbəximizin nümunəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi, habelə kamança musiqi alətinin hazırlanması və ifaçılıq sənəti UNESCO-nun müvafiq siyahılarına salınıb. Həmçinin Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhər, Qobustan qayaüstü rəsmləri UNESCO-nun Dünya İrsi Siyahısında yer alıb. Mədəni irsimizi dünyaya tanıdan bu böyük işlər Azərbaycanın birinci xanımının dəstəyi, rəhbərliyi, Mədəniyyət Nazirliyi və digər qurumların birgə əməkdaşlığı ilə həyata keçirilib. Sözsüz ki, Azərbaycanın irs nümunələrinə belə yüksək diqqət ayrılması ölkəmizin bu mötəbər təşkilatla sıx əlaqələrinin təsdiqidir. Bu həm də Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzunun, ölkəmizə göstərilən yüksək etimadın göstəricisidir.

* * *

On beş ilin mədəniyyət salnaməsinə nəzər yetirəndə ölkəmizdə musiqi sahəsinin yüksəliş çağını yaşadığını söyləyə bilərik. Bu xüsusda Heydər Əliyev Fondu hörmətli Mehriban xanımın rəhbərliyi ilə Azərbaycan musiqisinə misilsiz töhfələr verir. 2009-cu ildə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə əsası qoyulan "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı və Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təkcə musiqimizin deyil, ümumilikdə ölkəmizin dünya miqyasında təbliğinə xidmət edən mühüm mədəniyyət layihələridir. Eyni zamanda ənənəvi olaraq keçirilən Bakı Caz Festivalı, Rostropoviç Musiqi Festivalı, "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı, Qara Qarayev Müasir Musiqi Festivalı, Vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsi, iki ildir bu sıraya qoşulan Qəmər Almaszadə adına Beynəlxalq Rəqs Müsabiqəsi müxtəlif ölkələrdən tanınmış ifaçıları bir araya gətirərək dünya musiqi xəritəsində Azərbaycanı tanıdır.

Bu illərdə Azərbaycan musiqi sənəti dünya səhnələrini fəth edib, ifaçılarımız yüzlərlə sənət yarışmasında uğur qazanıb. TÜRKSOY-un təşəbbüsü, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ü.Hacıbəylinin "Koroğlu" və "Leyli və Məcnun" operaları türkdilli ölkələrin sənətçilərinin iştirakı ilə tamaşaya qoyulub, Q.Qarayevin "Yeddi gözəl" baleti ilk dəfə ABŞ-da (2014) səhnə həyatı qazanıb.

Azərbaycan musiqisinin inkişafına zəmin olan iri mədəniyyət ocaqlarının yaradılması paytaxtla yanaşı bölgələrimizi də əhatə edir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzulidə Muğam mərkəzləri tikilib istifadəyə verilib. 2017-ci ildə musiqi sahəsində əlamətdar hadisələrdən biri respublikanın ikinci böyük şəhərində - Gəncədə möhtəşəm filarmoniya binasının açılışı oldu. *Bu günlərdə Ağdamda müasir üslubda tikilən möhtəşəm Muğam Mərkəzi Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə musiqi ictimaiyyətinin ixtiyarına verildi. Həmin mərasimdə dövlət başçısı demişdir: "Bu gözəl, möhtəşəm bina bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti öz milli sənəti olan muğama çox böyük sevgi ilə yanaşır. Muğam Mərkəzində həm məşhur ifaçılarımız öz məharətlərini göstərəcəklər, həm də gənclər muğam sənətinə cəlb ediləcəklər. Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi... Muğam Azərbaycan xalqının milli sənəti, eyni zamanda milli sərvətidir".*

Musiqi sahəsinə dövlət qayğısı yaradılan infrastrukturla bitmir. İstedadlı gənc musiqiçilərimiz Prezident təqaüdünə layiq görülür, xaricdə dövlət hesabına təhsil alırlar. Fitri istedadı ilə seçilən heç bir gəncimiz dövlət rəhbərliyinin diqqətindən kənarda qalmır. Onlarla gənc musiqiçi, adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ına yazılmaqla, xüsusi Prezident təqaüdünə layiq görülüb.

* * *

Müstəqil Azərbaycanın son on beş ilində ölkənin inkişafından xüsusilə bəhrələnən mədəniyyət sahələrindən biri də teatrdır. Köklü ənənələrə malik olan, bu il 146-cı mövsümünə qədəm qoyan Azərbaycan peşəkar milli teatrı zəngin inkişaf yolu keçib. Teatrlarımızın maddi-texniki baxımdan inkişafı ilə yanaşı, bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində də mühüm addımlar atılıb. MDB məkanında ilk dəfə ölkəmizdə "Teatr və teatr fəaliyyəti haqqında" qanun (2007), habelə "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı qəbul edilib. Prezidentin müvafiq sərəncamları ilə paytaxtdakı beş teatrın (Kukla, Rus Dram, Gənc Tamaşaçılar, Milli Dram, Musiqili teatrlar), eləcə də Mingəçevir, Füzuli, Ağdam, Şəki, Sumqayıt dram, Gəncə kukla teatrlarının binaları əsaslı şəkildə təmir-bərpa olunub, İrəvan, Şuşa, Pantomima teatrlarına binalar verilib.

Teatrların maddi-texniki bazasının yaxşılaşdırılması yaradıcı fəaliyyəti də təşviq edir. Bu illər ərzində teatr kollektivləri 30-dan çox ölkədə qastrol səfərində olub, onlarla beynəlxalq festivala qatılıb. Ölkəmiz teatrla bağlı beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir, dünya teatr sənətinin problemləri Azərbaycan paytaxtında müzakirə olunur. 2010-cu ildə əsası qoyulan Bakı Beynəlxalq Teatr Konfransı ötən müddətdə həm ölkəmizin evsahibliyi etdiyi beynəlxalq mədəniyyət tədbirləri sırasında, həmçinin beynəlxalq teatr təşkilatlarının fəaliyyət təqvimində özünə mühüm yer qazanıb. *Bir neçə gün öncə, paytaxtımız 5-ci dəfə Beynəlxalq Teatr Konfransına evsahibliyi etdi. 40-dan çox ölkədən mütəxəssislərin, bu sahə üzrə beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı tədbirə Prezident İlham Əliyev tərəfindən ünvanlanan təbrik məktubu dövlətimizin mədəniyyətə, o cümlədən teatr sənətinə nə dərəcədə diqqət ayırdığının, ölkə rəhbərinin bu sahənin daha da inkişaf etməsində nə qədər maraqlı olduğunun bariz göstəricisidir. Müraciətdə deyilir: "Böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə tərəfindən milli dramaturgiyanın təməlinin qoyulması ölkəmizdə xalq teatrının peşəkar teatr sənətinə çevrilməsi ilə nəticələndi. Ötən müddət ərzində dolğun fəaliyyət göstərmiş və əsl milli sərvətə çevrilmiş Azərbaycan teatrı bu gün də xalqımızın sosial-mədəni həyatında özünəməxsus layiqli yer tutur".*

Ötən illərdə ölkəmizdə teatr sahəsində digər beynəlxalq tədbirlərin də əsası qoyulub. Bakı Beynəlxalq Kukla Teatrları Festivalı (2011, 2013), Şəki "Üç məkan" Beynəlxalq Teatr Festivalı (2014, 2016, 2018) ölkəmizin dünya teatr aləminə inteqrasiyasının nümunələridir. Həmçinin teatrlarımızın peşəkarlığını artırmaq məqsədilə respublika miqyaslı festivallar keçirilir.

* * *

"Müasirlik, yenilik və eyni zamanda milli dəyərlərə, milli köklərə bağlılıq. Bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Biz tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq".

Prezident İlham Əliyev bu fikirləri ölkə rəhbərliyinə gəldiyi ilk dövrlərdə səsləndirmişdi. Milli-mənəvi dəyərlərə söykənən və müasir çağırışlara cavab verən mütərəqqi ideyaları yaşadıb inkişaf etdirəcəyini xüsusi vurğulayan dövlət başçısı bütün fəaliyyətində qeyd olunan bu sahələri daim diqqət mərkəzində saxlamışdır. Hərtərəfli, ahəngdar inkişaf ölkənin bütün regionlarını əhatə edən inkişafdır. Uğurlu islahat real nəticələr verən islahatdır. Sevindirici haldır ki, son on beş ildə ölkəmizdə aparılan islahatlar paytaxt və digər böyük şəhərlərlə məhdudlaşmayaraq ən ucqar bölgələrimizi də əhatə edib. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası yerlərdə mədəni həyata da mühüm və müsbət təsir göstərib. Dövlət başçısının bölgələrimizə hər bir səfəri müasir mədəniyyət ocaqlarının açılışı ilə də yadda qalır. Regionların mədəniyyət infrastrukturunun yenilənməsi ilə bərabər, tarixi-mədəni abidələrimiz də təmir-bərpa olunur.

Dövlət başçısının mədəni irsə, eləcə də bölgələrimizin mədəni inkişafına diqqət və qayğısı bu sahədə mühüm layihələrə zəmin yaradır. Mədəniyyət Nazirliyi tərəfindən bu istiqamətdə qabaqcıl dünya təcrübəsi də nəzərə alınaraq müxtəlif proqramlar, layihələr icra olunur, festivallar keçirilir. "Xalq yaradıcılığı paytaxtları" proqramı (2010-2014), "Ədəbiyyat paytaxtı" və "Milli mətbəx paytaxtı" (2015), "Bölgələrdən paytaxta" (2016-2017) layihələri bu qəbildəndir. 2018-ci ilin yay aylarında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı da şəhər və rayonlarımızın mədəni irsinin təbliğinə daha bir töhfə oldu.

Bu illərdə bir sıra regional layihələr geniş miqyas qazanaraq beynəlxalq tədbirlərə çevrilib. Qəbələdə mürəbbə, Şəkidə şirniyyat festivalları buna nümunədir. Milli mətbəxlə bağlı digər festivallarda (dolma, plov) da müxtəlif ölkələr təmsil olunur.

Sevindirici haldır ki, bəzi bölgələrimiz beynəlxalq təşkilatlar formatında "mədəniyyət paytaxtı" adını qazanır. 2013-cü ildə Qəbələnin "MDB-nin mədəniyyət paytaxtı", 2016-cı ildə Şəkinin "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi regionlarımızın mədəni irsinin tanıdılmasına əlavə imkanlar açdı. 2017-ci ildə Şəki şəhəri UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi" siyahısına salındı.

Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycan - doğma diyar" devizi altında keçirilən (2006, 2008, 2011, 2014, 2016) milli azlıqların incəsənət festivalları ölkəmizdəki mədəni müxtəlifliyi hər kəsə nümayiş etdirir. Prezident tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili", 2017-ci ilin "İslam həmrəyliyi ili" elan olunması ölkəmizin mədəni zənginliyini, tolerantlıq mühitini dünyaya bəyan etməklə yanaşı, bu xüsusda yeni mədəni təşəbbüslərə də mühüm zəmin yaradır.

Ölkəmizdə tarixi mədəni irsin qorunub saxlanılmasına xüsusi qayğı göstərilir. Prezidentin sərəncamları ilə 2007-ci ildə Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna "Milli qoruq" statusu verilib, Abşeron rayonunda "Yanardağ", Ağstafada "Keşikçidağ", paytaxtın Suraxanı rayonunda "Atəşgah məbədi", Qubada "Xınalıq" tarix-mədəniyyət, tarix memarlıq və etnoqrafiya qoruqları təşkil edilib. Dövlət başçısının fərmanı ilə yaradılan (2014) Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti bu istiqamətdə kompleks işlər həyata keçirir.

Paytaxtda və bölgələrdə muzeylərin inkişafı da dövlət başçısının diqqət mərkəzindədir. Tarix-diyarşünaslıq muzeyləri ilə yanaşı, yerlərdə yaradılan Heydər Əliyev mərkəzlərinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasına böyük önəm verilir. Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun yeni muzey kompleksi, Qız qalasında yaradılan ekspozisiya müasir texnologiyaların uğurlu tətbiqinin nəticəsidir. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində işlər davam etdirilir. Mədəniyyət Nazirliyinin Avropa İttifaqının dəstəyi və İtaliyanın müvafiq sahə üzrə nazirliyinin iştirakı ilə həyata keçirdiyi Tvinninq layihəsi çərçivəsində ötən il İtaliyaya təlim səfərləri, Bakıda muzey işçiləri üçün treninqlər təşkil edilib.

* * *

Ötən dövrdə ölkəmizdə kitab və nəşriyyat işi sahəsində mühüm nailiyyətlər əldə olunub. Azərbaycan kitablarının sorağı dünyanın nüfuzlu beynəlxalq sərgilərindən gəlir, nəşrlərimiz beynəlxalq müsabiqələrdə müxtəlif mükafatlara layiq görülür. 2009-cu ildən etibarən Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakıda ənənəvi (iki ildən bir) beynəlxalq kitab sərgi-yarmarkası keçirilir. Bu tədbir ölkə ictimaiyyətini dünyanın müasir kitab mədəniyyəti ilə tanış etməklə bərabər, Azərbaycanda nəşriyyat-poliqrafiya işinin inkişaf mənzərəsinin beynəlxalq səviyyədə təbliğinə xidmət edir.

Respublikamızda kitabxana-informasiya sahəsi dünyanın qabaqcıl ölkələri ilə müqayisə ediləcək səviyyədə yenidən qurulur. Azərbaycan Milli Kitabxana-İnformasiya Mərkəzinin (AZLİBNET), ölkə kitabxanalarını vahid məkanda birləşdirən Mərkəzləşdirilmiş Elektron Kitabxana Sisteminin (ALİSA) yaradılması bu sahədə inkişafın göstəricisidir. Nazirliyin dəstəyi ilə keçirilən Buktreyler festivalı kitab və mütaliənin təbliği baxımından diqqətəlayiq hadisədir. Hazırda ölkəmizdə bütün sahələrdə tətbiq olunan innovativ yeniliklər kitabxana-informasiya istiqamətini də əhatə edir. "Açıq kitabxana", "Book-kafe", "Səyyar kitabxana" xidmətləri insanların kitaba olan marağını artırmağa xidmət edən layihələrdir.

* * *

Bu il Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan kinosunun 120 illiyi geniş şəkildə qeyd olunur. Ötən dövrdə zəngin mədəniyyət salnaməmizə parlaq səhifələr yazan Azərbaycan kinosu müstəqillik dövründə yeni inkişaf mərhələsini yaşayır. O cümlədən son 15 ildə milli kinematoqrafiya mühüm yol qət edib. Ölkə rəhbəri tərəfindən "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsindən keçən müddət ərzində 46 tammetrajlı bədii, 50 qısametrajlı bədii, 200-dən çox sənədli, 20-dən çox cizgi filmi çəkilib. Kinoda gənclərə geniş meydan açılıb, 60-dan çox rejissor özünün ilk ekran əsərini çəkib. Son dövrdə çəkilən filmlərimiz 50-dək ölkədə beynəlxalq festivallarda iştirak edib, təkcə ötən il 15 filmimiz 20-dək beynəlxalq festivalda mükafata layiq görülüb.

Son illərdə "Azərbaycanfilm" kinostudiyasında, həmçinin Bakı Media Mərkəzində milli tarixi yaddaşın bərpasına, Azərbaycanın ictimai-siyasi həyatına, görkəmli şəxsiyyətlərə həsr olunan qiymətli bədii və sənədli ekran əsərləri ərsəyə gətirilir. Bu qəbildən filmlərin ölkəmizlə yanaşı, xaricdə də təqdimatları keçirilir.

Kino irsinin qorunması, filmlərin nümayişi sahəsində də mühüm işlər görülür. 2009-cu ildə istifadəyə verilən Dövlət Film Fondunun binası texniki imkanlarına görə dünyada ən müasir kino-arxiv müəssisələrindəndir. Əsaslı yenidənqurmadan sonra 2011-ci ildə Bakıda Nizami Kino Mərkəzinin istifadəyə verilməsi ilə müasir səviyyəli kino prokatının əsası qoyulub. Dövlətin bu sahədə nümunə olan addımından sonra müasir tələblərə uyğun özəl kinoteatrlar şəbəkəsi inkişaf etməyə başlayıb.

* * *

Ölkənin mədəni inkişafının davamlılığının təmin olunması bu sahədə kadr hazırlığından, müasir tədris sisteminin qurulmasından da asılıdır. Ötən illərdə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə bədii təhsil sahəsində mühüm işlər görülüb. Paytaxtda və regionlarda onlarla musiqi və incəsənət məktəbinin yeni binaları inşa edilib, mövcud binalar əsaslı təmir olunub, maddi-texniki bazası yaxşılaşdırılıb. 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı Xoreoqrafiya Məktəbinin bazasında ümumtəhsil, orta ixtisas və ali təhsil pilləsində tədris verən Bakı Xoreoqrafiya Akademiyasının yaradılması milli xoreoqrafiya sənətinin inkişafına dövlət qayğısının bariz nümunəsidir.

Hazırda Mədəniyyət Nazirliyi sistemində 200-dən çox uşaq musiqi, incəsənət və rəssamlıq məktəbində müxtəlif ixtisaslar üzrə tədris aparılır. Təhsil ocaqlarında tədrisin keyfiyyətinin yüksəldilməsinə, istedadlı uşaq və gənclərin üzə çıxarılmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə müxtəlif müsabiqələr təşkil olunur, şagird və tələbələrin yaradıcılığının stimullaşdırılması prioritet təşkil edir.

* * *

Əvvəldə qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin respublikamıza rəhbərliyi ilk illərdən tarixi-mədəni irsə bağlılıqla müşayiət olunub. Çünki hər bir xalqın mədəni irsi onun ən gözəl təqdimatıdır. Ötən illər ərzində mədəni irsimizin dünyada təbliği istiqamətində çox mühüm addımlar atılıb. Xalça ustası Lətif Kərimovun (2006), Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının (2008), "Arşın mal alan" operettasının (2013), görkəmli yazıçı Mir Cəlal Paşayevin (2008), xalq rəssamı Səttar Bəhlulzadənin (2009), xalq yazıçısı İlyas Əfəndiyevin (2014) 100 illik yubileyləri, böyük mütəfəkkir Seyid Yəhya Bakuvinin vəfatının 550, şairə Məhsəti Gəncəvinin yaradıcılığının 900 (2013), "Kitabi-Dədə Qorqud" dastanının alman dilinə tərcüməsi və nəşrinin 200 illiyi (2015) UNESCO səviyyəsində qeyd edilmişdir. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü, görkəmli şair Molla Pənah Vaqifin 300 illiyi UNESCO-nun 2016-2017-ci illər üzrə yubileylər proqramında yer alıb. 2018-ci ildə UNESCO-nun yubileylər proqramına dahi bəstəkar Qara Qarayevin 100 illiyi daxil edilib. Cari ilin oktyabrında isə böyük musiqiçinin Bakı şəhərində ev-muzeyinin açılışı keçirilib.

Dövlət başçısı Azərbaycana dünya şöhrəti gətirən, onu tanıdan mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsinə də hər zaman xüsusi önəm verir. Bu illər ərzində paytaxtımızda dahi bəstəkarlar Fikrət Əmirovun, Qara Qarayevin, maestro Niyazinin, peşəkar vokal sənətimizin banisi Bülbülün, görkəmli müğənni Rəşid Behbudovun abidələrinin ucaldılması təkcə bu şəxsiyyətlərə ehtiramın göstəricisi deyil, həmçinin onların simasında Azərbaycan mədəniyyətinin ölkəmizə gələn qonaqlara, bütövlükdə dünyaya tanıdılmasıdır.

2009-cu ildə Bakı şəhərinin, bu il isə ölkəmizin qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan şəhərinin "İslam mədəniyyətinin paytaxtı" elan edilməsi, bu çərçivədə keçirilən tədbirlərə müxtəlif ölkələrdən nümayəndələrin qatılması da nəticə etibarilə Azərbaycanın zəngin mədəni irsinin və müasir inkişafının dünyaya təqdimatı üçün tarixi imkanlardır. Ötən illərdə ölkəmizin evsahibliyi etdiyi bir çox beynəlxalq tədbirlər, I Avropa Oyunları (2015), IV İslam Həmrəyliyi Oyunları (2017) kimi böyük idman yarışmaları da eyni zamanda Azərbaycanın zəngin mədəni irsinin tanıdılması baxımından mühüm bir fürsət olub.

* * *

Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmiz BMT, İslam Əməkdaşlıq Təşkilatı, UNESCO, Avropa Şurası, Avropa İttifaqı, ISESCO və başqa təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələri qurub. Bu əlaqələrin mühüm bir müstəvisini mədəniyyət təşkil edir. Bu gün Azərbaycan dünyada mədəniyyətlərarası, sivilizasiyalararası dialoq mərkəzidir. 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı prosesi" regional təşəbbüsdən beynəlxalq platformaya çevrilib. Azərbaycan paytaxtı 2010-cu ildən Beynəlxalq Humanitar Foruma, 2011-ci ildən Dünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi edir. 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçirilməsi Azərbaycanın dünyaya sülh mesajı oldu.

2017-ci ilin mayında Bakıda dördüncü dəfə reallaşan Dünya Mədəniyyətlərarası Dialoq Forumu BMT-nin hesabatında və qurumun baş katibinin xüsusi məruzəsində dünyanın mədəniyyətlərarası dialoq mövzusunun əsas tərkib hissəsi kimi qeyd edilib.

25-26 noyabr 2018-ci il tarixdə yüksək səviyyədə keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu bu nüfuzlu platformaya dünya miqyasında marağın azalmadığını ortaya qoydu. "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən forumda bəşəriyyəti narahat edən məsələlər müzakirə olundu, dünyaya sülh mesajları verildi. Forumda çıxış edən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan öz dəyər və ənənələrinə bağlı, eyni zamanda dünyaya açıq ölkədir: "Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır".

* * *

Mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, bu sahənin inkişafı onun effektiv, dövrün tələblərinə uyğun idarə edilməsindən bilavasitə asılıdır. Bu mühüm məqam ötən dövrdə cənab Prezidentin mədəniyyət sahəsində idarəçiliklə bağlı qəbul etdiyi qərarlarda, aparılan struktur islahatlarında öz əksini tapıb. 2006-cı ildə dövlət başçısının fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyi yaradılarkən qarşıya qoyulan vəzifələrdən biri mədəniyyətin inkişafı ilə bərabər, mədəni irs, zəngin incəsənətimiz və qonaqpərvərlik ənənələrimizlə yeni təşəkkül tapan turizm sənayesinə də dəstək verilməsi idi. Ötən dövrdə nazirlik həmin vəzifənin öhdəsindən gəldi, mədəniyyət sektoru milli turizm sənayesinin inkişaf etdirilməsində mühüm rol oynadı, bu istiqamətdə dünya təcrübəsinə əsaslanan layihələr həyata keçirildi.

*Prezident İlham Əliyevin 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamına əsasən, Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradıldı. Dövlət başçısının 6 iyun 2018-ci il tarixli fərmanı ilə Mədəniyyət Nazirliyinin Əsasnaməsi və strukturu, həmçinin nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Əsasnaməsi təsdiq edildi. Eyni zamanda, Prezidentin 29 mart 2016-cı il sərəncamı ilə aparılan struktur islahatları nəticəsində nazirliyin Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və 15 regional idarəsi fəaliyyət göstərir. Həyata keçirilmiş islahatlar mədəniyyət sahəsində daha çevik idarəçiliyin təmin olunması, mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılması məqsədi daşıyır.*

Prezident İlham Əliyevin tapşırığına əsasən, 2014-cü ildən etibarən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri yerlərdə vətəndaşların müntəzəm qəbullarını keçirir. Əhali ilə bu görüşlər nazirliyin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması, mədəni xidmətin yaxşılaşdırılması, problemlərin operativ şəkildə aradan qaldırılması və vətəndaş təşəbbüskarlığının təşviq olunmasında mühüm rol oynayır.

* * *

Ay yarımdan sonra başa vuracağımız 2018-ci il ölkəmizin həyatında əlamətdar hadisələrlə zəngindir. Azərbaycan xalqının müsəlman Şərqində tarixə bəxş etdiyi cümhuriyyətin 100 illiyi dövlət səviyyəsində qeyd edilir. Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunub. Bu, Azərbaycanın dövlətçilik tarixinə, milli yaddaşa dərin ehtiramının bariz nümunəsidir. Cümhuriyyətin 100 illiyi respublikamızla yanaşı, xarici ölkələrdə də qeyd olunur, bu münasibətlə mədəni tədbirlər, təqdimatlar keçirilir.

Müstəqilliyimizin son 15 ili, tariximizdə yeni mərhələ olmaqla bərabər, ölkə həyatının bütün sahələrinin dinamik inkişafı ilə, Azərbaycanın regionda güc-qüdrətinin, dünyada nüfuzunun artması ilə müşayiət olunub. Ölkəmizdə mədəniyyət sahəsinin də ahəngdar inkişafının təmin edilməsi dövlət başçısının bu sahəyə yüksək diqqət və qayğısının nəticəsi, eyni zamanda ulu öndər Heydər Əliyevin milli mədəni intibah amalının əbədi yaşayacağının təminatıdır.

***Əbülfəs QARAYEV,***
***Azərbaycan Respublikasının mədəniyyət naziri***

# Milli Məclisin bir sıra deputatı Milli Ordumuzun 100 illiyi ilə bağlı yubiley medalı ilə təltif olunub





Noyabrın 12-də Milli Məclisdə bir sıra deputata "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, çıxış edən Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu tədbirin əlamətdar günə - Konstitusiya Gününə təsadüf etdiyini bildirib.

A.Təvəkküloğlu diqqətə çatdırıb ki, 2018-ci il Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Bu münasibətlə həm Azərbaycanda, həm də ölkəmizdən kənarda xeyli sayda tədbirlər keçirilib. Bu tədbirlər hələ də davam edir. Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi ilə bağlı təntənəli iclas keçirildi. Bu iclasa xarici ölkələrdən xeyli sayda qonaqlar qatıldı. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi ilə əlaqədar möhtəşəm parad keçirildi. Paradda 100-ə yaxın xarici ölkədən nümayəndələr iştirak edirdilər. Dünyanın bir çox aparıcı informasiya vasitələri bu parad barədə reportajlar hazırladılar və informasiyalar verdilər. Bu, hər birimiz üçün qürurvericidir.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev Milli Məclisin deputatlarının ordu quruculuğu sahəsindəki fəaliyyətini yüksək dəyərləndirərək bildirib ki, Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə bağlı bir sıra tədbirlər keçirilir. Deputatlar həmin tədbirlərdə də fəal iştirak edirlər.

Tədbirin sonunda "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı haqqında Əsasnaməyə müvafiq olaraq Milli Məclis Sədrinin müavinləri Bahar Muradovaya və Valeh Ələsgərova, parlamentin komitə sədrləri Əli Hüseynli, Ziyad Səmədzadə, Eldar İbrahimov, Hadi Rəcəbli, Əhliman Əmiraslanov, Aqiyə Naxçıvanlı, Ülvi Quliyev, Siyavuş Novruzov, Arif Rəhimzadə, İsa Həbibbəyli, Rafael Hüseynov və Səməd Seyidova, deputatlar Aydın Mirzəzadə, Aqil Abbas, Adil Əliyev, Xanlar Fətiyev, Fərəc Quliyev, Hikmət Məmmədov, Elman Məmmədov, Zahid Oruc, Bəxtiyar Sadıqov və Hacı Salayevə respublikanın müdafiə naziri Zakir Həsənovun əmri əsasında Milli Ordumuzun yaranmasının 100 illiyi ilə bağlı təsis olunmuş yubiley medalı təqdim olunub.

# Daşkənddə "Hüseyn Cavid yaradıcılığı dünya dramaturgiyasının zirvəsidir" adlı beynəlxalq elmi konfrans keçirilib





Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) və Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin təşkilatçılığı, Bakıdakı "Kaspi" qəzeti və eyni adlı təhsil şirkətinin dəstəyi ilə "Hüseyn Cavid yaradıcılığı dünya dramaturgiyasının zirvəsidir" adlı beynəlxalq elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, universitetdə keçirilən tədbirdə "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin rəhbərləri və idarə heyətinin üzvləri, elm, mədəniyyət və incəsənət xadimləri, professor-müəllim heyəti, tələbələr iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları böyük Azərbaycan şairi Nizami Gəncəvinin universitetin qarşısındakı abidəsi önünə gül və çiçəklər düzüblər. Sonra onlar AMM-in təşəbbüsü ilə universitetdə yaradılan Nizami Gəncəvi İrsinin Tədqiqi Mərkəzi ilə tanış olub və foyedə təşkil edilən "Qürurumuz - yüz illik Cümhuriyyətimiz" adlı foto, rəsm, kitab və əl işləri sərgisinə baxıblar.

Tədbir çərçivəsində AMM-in, "Kaspi" qəzeti və eyni adlı təhsil şirkətinin layihəsi ilə Daşkənddə özbək dilində işıq üzü görən Hüseyn Cavidin "Seçilmiş əsərləri" kitabı ictimaiyyətə təqdim edilib.

Açılış mərasimində çıxış edən universitetin rektoru, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin rəhbəri, professor Şavkat Şaripov Azərbaycan və özbək xalqları arasında tarixi dostluq əlaqələrindən danışıb, AMM-in layihəsini yüksək qiymətləndirib. O, dahi Hüseyn Cavidin əsərlərinin Özbəkistanda həmişə maraqla qarşılandığını qeyd edib, şairin yaradıcılığından bir sıra özbək mütəfəkkirlərinin bəhrələndiyini söyləyib. Rektor ötən əsrin əvvəllərində özbək maarifçilərinin Hüseyn Cavidin əsərlərini özbək dilinə tərcümə etdiklərini, bu əsərlərin Daşkənd və Səmərqənddə səhnələşdirilərək xalqın maariflənməsinə töhfə verdiyini bildirib.

AMM-in direktoru Samir Abbasov qədim zamanlardan Dədə Qorqud, Manas, Alpamış, Koroğlu kimi eposlar yaradan, Nizami Gəncəvi, Əlişir Nəvai, Füzuli, Nəsimi, Babur, Hüseyn Cavid kimi şəxsiyyətlər yetişdirən xalqlarımızın öz mədəniyyəti, ədəbiyyatı ilə qürur duyduqlarını vurğulayıb.

Özbəkistan ədəbiyyatının tanınmış siması, akademik Bəxtiyar Nazarov qardaş Azərbaycanla ədəbi əlaqələrin hər zaman yüksək səviyyədə olduğunu qeyd edib, Hüseyn Cavid irsinin daim araşdırılmasına, öyrənilməsinə ciddi ehtiyac duyulduğunu vurğulayıb.

"Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva romantizm cərəyanının nəhəng nümayəndələrindən biri kimi ədəbiyyat tariximizdə parlaq bir səhifə açan Hüseyn Cavidin yaradıcılığında xalqın milli məfkurəsini - türkçülük ideyalarını qorumaq və yaşatmaq kimi böyük missiyaların olduğunu qeyd edib. Vurğulayıb ki, milli məfkurəyə sıx bağlı olan Hüseyn Cavid türk xalqlarının birliyi, maariflənməsi yolunda yorulmadan çalışıb, ədəbiyyatımıza möhtəşəm qəhrəmanların obrazlarını gətirib. O, "Peyğəmbər" pyesində yaratdığı Peyğəmbər obrazı ilə bu mövzuda əsər yazan bütün sənətkarları üstələyib.

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Kamran Əliyev, Özbəkistan Yazıçılar Birliyinin tərcümə bölməsinin rəhbəri, dosent Adxambey Olimbeyov, professor Nurbay Cabbarov, Özbəkistan Milli Universitetinin professoru Həmidulla Baltabayev, filologiya elmləri doktoru Azər Turan, şair-tərcüməçi Babaxan Şərif və başqaları çıxış edərək zəngin və rəngarəng məzmuna malik olan Hüseyn Cavidin yaradıcılığında ədəbi-bədii, tarixi, dini, fəlsəfi yanaşmadan danışıblar.

Hüseyn Cavidin zəngin irsinin hər zaman öz aktuallığını qoruyub saxladığını qeyd edən alimlər, romantizm cərəyanın nəhəng nümayəndələrindən biri kimi ədəbiyyat tariximizdə parlaq bir səhifə yaradan dramaturqun yaradıcılığına nəzər salıblar. Onlar böyük ədibin ayrı-ayrı əsərləri, dramlarındakı qəhrəmanları haqqında söhbət açaraq deyiblər ki, Hüseyn Cavid tarixə həm də özbək xalqının böyük strateq və hökmdarı Əmir Teymurun ölməz obrazını yaradan sənətkar kimi düşüb.

Sonra qarşılıqlı olaraq tərəflər bir-birlərinə qarşılıqlı hədiyyələr və kitablar bağışlayıblar.

# Sağlamlıq imkanları məhdud uşaqlar üçün inklüziv təhsillə bağlı layihə təqdim edilib

Noyabrın 12-də Avropa İttifaqı (Aİ), BMT-nin Uşaq Fondu (UNICEF) və Təhsil Nazirliyinin birgə tərəfdaşlığı çərçivəsində "Sağlamlıq imkanları məhdud uşaqlar üçün keyfiyyətli inklüziv təhsilin genişləndirilməsi" layihəsinin təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, təhsil naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində təhsil sahəsində müsbət dinamikanın müşahidə olunduğunu diqqətə çatdırıb. Nazir həyata keçirilən islahatlar nəticəsində təhsilin keyfiyyətinin daha da yüksəldiyini vurğulayıb.

C.Bayramov Təhsil Nazirliyi tərəfindən sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə həyata keçirilən tədbirlərdən söz açıb. Heydər Əliyev Fondunun bu sahədə əvəzolunmaz fəaliyyətini xüsusi qeyd edən nazir bildirib ki, sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində fond tərəfindən məqsədyönlü işlər görülüb. 2017-2018-ci tədris ilində sağlamlıq imkanları məhdud 10130 uşağın xüsusi təhsilə cəlb edildiyini diqqətə çatdıran Ceyhun Bayramov nazirlik tərəfindən "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın icrası barədə məlumat verib. Bildirib ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırda inklüziv təhsillə bağlı UNICEF və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən iki layihə icra olunur. UNICEF-in Azərbaycandakı nümayəndəliyi tərəfindən icra olunan "Sağlamlıq imkanları məhdud uşaqlar üçün keyfiyyətli inklüziv təhsilin genişləndirilməsi" layihəsi çərçivəsində pedaqoji universitetlərin və ümumi təhsil müəssisələrinin pedaqoji heyətinin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması məqsədilə təlimlərin təşkili, Bakıda və regionlardakı məktəblərdə 9 resurs mərkəzinin yaradılması, sağlamlıq imkanları məhdud uşaqların hüquqlarına dair məlumatlılığı artırmaq məqsədilə ictimai davranış və sosial dəyişiklik kampaniyalarının keçirilməsi nəzərdə tutulur. Nazir həmçinin bu layihənin müvafiq dövlət proqramının uğurla həyata keçirilməsinə töhfə verəcəyini vurğulayıb.



UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin bildirib ki, Təhsil Nazirliyi, Avropa İttifaqı və BMT-nin Uşaq Fondu arasında yeni tərəfdaşlıq təşəbbüsü sayəsində daha çox sayda sağlamlıq imkanları məhdud uşaq keyfiyyətli inklüziv təhsildən faydalanacaq. O qeyd edib ki, yeni tərəfdaşlıq təşəbbüsü sağlamlıq imkanları məhdud uşaqların ölkədəki ümumtəhsil məktəblərində hərtərəfli təhsil alması üçün, eyni zamanda, onların cəmiyyətə inteqrasiyasına mane olan yanlış fikirlərin və münasibətlərin aradan qaldırılması üçün imkanlar yaradacaq.

"Sağlamlıq imkanları məhdud uşaqların keyfiyyətli təhsil prosesinə cəlb olunması onların bilik qazanmasına və inkişaf etməsinə müsbət təsir göstərəcək. Eyni zamanda, bu cür uşaqların ictimai həyatda fəaliyyəti barədə yanlış düşüncələrin əsassız olduğu sübuta yetiriləcək. Təhsilin hər bir uşaq üçün əlçatan olması sağlamlıq imkanları məhdud uşaqların öz potensiallarından hərtərəfli istifadə etməsinə imkan verəcək. Biz bu təşəbbüsün həyata keçirilməsində Təhsil Nazirliyi və Avropa İttifaqı ilə birgə işləməkdən məmnunuq" - deyə E.Karvardin bildirib.

UNICEF-in nümayəndəsi qeyd edib ki, layihə çərçivəsində ölkənin yeddi şəhərində - Bakıda, Sumqayıtda, Gəncədə, Qubada, Şəkidə, Ağcabədidə və Qazaxda inklüziv təhsil üzrə resurs və dəstək mərkəzləri yaradılmaqla sağlamlıq imkanları məhdud uşaqların sosial inteqrasiyası məsələsinə ictimai diqqət artırılacaq. Bu təşəbbüs çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimlərinin ümumtəhsil məktəblərində xüsusi təlim keçməsi nəzərdə tutulur.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas inklüziv təhsilin tətbiqinin vacibliyindən danışıb. Qeyd edib ki, hər kəsin öz bilik və bacarıqları ilə ictimai həyatda hərtərəfli iştirak etmək, inklüziv təhsil almaq, təlimlərə cəlb olunmaq və həyatı boyu öyrənmək hüququ var.

Daha sonra layihə ilə bağlı təqdimatlar olub, çıxışlar dinlənilib.

Qeyd edilib ki, layihə üzrə 10 min nəfərdən çox müəllim və məktəb direktoru inklüziv təhsil üzrə ixtisasartırma proqramlarından faydalanacaq. Layihə 2020-ci ilədək ümumtəhsil məktəblərində 5000 nəfərədək sağlamlıq imkanları məhdud uşağın təhsil almasına imkan yaradacaq.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Norveç Krallığının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Olav Nils Thue ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonağı salamlayıb, Norveç Krallığının Azərbaycandakı səfirliyinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına verdiyi töhfəni qeyd edib. İkitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolundan, təhsil, mədəniyyət və ticarət sahələrindəki əlaqələrdən bəhs edən Ali Məclisin Sədri muxtar respublikanın universitetlərinin Norveç universitetləri ilə birlikdə TEMPUS və ERASMUS proqramlarında iştirakını diqqətə çatdırıb.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə Norveç Krallığı arasında elm, təhsil, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı üçün imkanların olduğunu bildirib.

Naxçıvan haqqında geniş məlumata malik olduğunu bildirən Olav Nils Thue muxtar respublikaya səfərindən və göstərilən münasibətdən məmnunluğunu ifadə edib. Qonaq ölkəsinin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb, əməkdaşlığın genişləndirilməsində səylərin artırılacağını vurğulayıb.

# Qafqazın ən böyük investisiya və sosialyönümlü büdcəsi

## *İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq 2019-cu ildə də sosial-iqtisadi layihələr icra ediləcək*

***Əvvəli 1-ci səh.***

### *Proqnozlar özünü doğruldur*

İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış 2019-cu il və sonrakı 3 il üzrə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasına, eləcə də proqnoz göstəricilərinə əsasən, gələn il ümumi daxili məhsulun (ÜDM) real iqtisadi artımı 3,6 faiz olmaqla, 81,9 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in artımı 50,5 milyard manat təşkil edəcək.

Xatırladaq ki, bir müddət öncə beynəlxalq reytinq agentlikləri olan "Moody's" və "Standard&Poor's"un (S&P) növbəti illər üçün açıqladıqları proqnozlarda da Azərbaycan iqtisadiyyatının artım tempi öz əksini tapmışdı. Analitiklər Azərbaycan iqtisadiyyatının 2019-cu ildə 3 faiz təşkil edəcəyini proqnozlaşdırırlar. 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul istehsalının artımının 3,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılıb. Proqnozlara əsasən, Azərbaycan iqtisadiyyatı 2018-ci ildən 2021-ci ilə qədər olan dövr ərzində orta hesabla 3 faiz artacaq.

### *18 milyard manata yaxın investisiya*

Büdcə zərfində qeyd edilir ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi növbəti illərdə də əsas iqtisadi prioritetlərdən olacaq. Ölkə iqtisadiyyatının inkişafına yönəlmiş investisiya qoyuluşlarnın artımı 2019-cu ildə də davam edəcək.

Xatırladaq ki, bu ilin dövlət büdcəsində əsas kapitala yönəldilən investisiyaların həcmi 15,9 milyard manat idi. Gələn il üçün isə bu məbləğin artaraq 17,9 milyard manat olması proqnozlaşdırılır. Bunun 58,1 faizi daxili investisiyaların, 41, 9 faizi xarici investisiyaların payına düşür. Sənəddə qeyri-dövlət investisiyalarının həcmi də göstərilib. Bu rəqəm 8,9 milyard manat olmaqla, ümumi investisiyaların 50 faizini təşkil edəcək.

Gələn il üçün ölkəmizə investisiyaların cəlb edilməsi ilə bağlı xarici ölkələrdə yerləşən və fəaliyyət göstərən ticarət nümayəndəliklərimizin saxlanması xərcləri üçün 3,7 milyon manat vəsait proqnozlaşdırılır.

Əlavə edək ki, bu ilin 9 ayında ölkə iqtisadiyyatına 9 milyard dollar investisiya qoyulub. Bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna yatırılıb. 9 ayda xarici ticarət dövriyyəsi 37 faiz, qeyri-neft ixracı isə təxminən 14 faiz artıb.

Dövlət büdcəsində investisiyaların həcmi ilə bağlı nəzərdə tutulan artım və builki göstəricilər onu deməyə əsas verir ki, 2019-cu ildə də dayanıqlı və tarazlı inkişafın təmin olunmasında iqtisadiyyata investisiyaların cəlb edilməsi xüsusi rol oynayacaq.

Bütün bunlar isə ölkə iqtisadiyyatının bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcək.

### *Sosialyönümlü xərclər yenə artırılır*

Əvvəlki illərdəki kimi, 2019-cu ilin də dövlət büdcəsinin sosialyönümlülüyünün təmin edilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi, bir çox mühüm sosial proqramların reallaşdırılması istiqamətində dövlət büdcəsində müvafiq məbləğdə vəsait nəzərdə tutulub.

2019-cu il dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərə ümumilikdə 8 milyard 265,8 milyon manat vəsait yönəldiləcək. Büdcənin yerli xərcləri 840,8 milyon manat məbləğində proqnozlaşdırılır. Bu, 2018-ci illə müqayisədə 116,9 milyon manat çoxdur.

Gələn ilin büdcəsində sosialyönümlü xərclər (əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları, ərzaq məhsullarının alınması xərclərinin cəmi) üçün 7919,9 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2018-ci illə müqayisədə 797,5 milyon manat çoxdur. Bu sosialyönümlü xərclərlə yanaşı əhaliyə bilavasitə xidmət göstərən bir sıra dövlət müəssisələrinə və tədbirlərə büdcədən 8265,6 milyon manat vəsaitin ayrılması da nəzərtə tutulur.

### *Gələn il 4 rayonda "ASAN xidmət" mərkəzləri açılacaq*

Gələn il həmçinin struktur islahatlarının davam etdirilməsi, yerli təşkilatlar və xidmətlərin fəaliyyətə başlaması ilə bağlı onların maliyyə təminatı üçün müvafiq məbləğdə vəsait ayrılacaq.

Bu vəsaitlər gələn il açılacaq 4 "ASAN xidmət" (Tovuz, Ağcabədi, Şamaxı və Kürdəmir) mərkəzinə, xarici ölkələrdə (Çin, Qətər, İraq) yaradılan diplomatik nümayəndəliklər, bəzi təşkilatlarda ştat sayının artırılmasına yönəldiləcək. Bununla yanaşı, publik hüquqi şəxs kimi fəaliyyət göstərən təşkilatlara maliyyə yardımı üçün 397,6 milyon manat vəsait nəzərdə tutulur.

### *Şagird, tələbə, magistr və doktorantların təqaüdlərində də artım olacaq*

Gələn il ali, orta ixtisas və ilk peşə-ixtisas təhsil müəssisələrinin tələbələri və şagirdlərinin, AMEA-nın magistrantları və doktorantlarının təqaüdlərinin, ali məktəblərin tələbələri üçün Prezident təqaüdləri, həmçinin Prezidentin fərdi təqaüdü və fəxri adlara görə təqaüdün məbləğləri artırılmaqla 189,5 milyon manat vəsait proqnozlaşdırılır.

Ölkədaxili ezamiyyə xərclərinin bir günlük normasının orta hesabla 40 faiz artımı ilə əlaqədar büdcədən əlavə olaraq 8,8 milyon manatın, icbari tibbi sığortanın tətbiqinin genişləndirilməsi üçün əlavə olaraq 223,5 milyon manatın ayrılması nəzərdə tutulur.

### *Bələdiyyə seçkilərinin keçirilməsi üçün - 54 milyon manat*

Bundan başqa, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi üçün 262 milyon manat, icbari tibbi sığortaya 224 milyon manat, gələn il 5-ci bələdiyyə seçkilərinin keçirilməsi üçün 54 milyon manat, yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsi üçün 18 milyon manat, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 4 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub.

2019-cu il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi xərcləri üçün 6 milyard 368,4 milyon manat vəsait ayrılıb.

### *34 şəhər və rayon öz büdcələrini müstəqil formalaşdıracaq*

2019-cu ildə yerli xərcləri tənzimləmək üçün büdcənin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımının (dotasiyanın) yerli xərclərin tərkibində xüsusi çəkisi 12, 4 faiz təşkil edəcək. Belə ki, 34 şəhər və rayon dövlət büdcəsindən dotasiya olmadan öz büdcələrini müstəqil formalaşdıracaq.

Büdcə zərfində qeyd olunub ki, Gəncə, Lənkəran, Mingəçevir, Naftalan, Sumqayıt, Şəki, Şirvan, Yevlax şəhərləri, Abşeron, Ağcabədi, Ağdaş, Astara, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, Xaçmaz, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Quba, Qubadlı, Qusar, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şabran və Şamaxı rayonları xərclərini öz gəlirləri hesabına təmin edəcək.

### *Prioritetlər düzgün seçilərsə...*

Nazirlər Kabinetinin son iclasında Prezident İlham Əliyev gələn ilin büdcəsi ilə bağlı fikirlərini bildirərkən də vurğulamışır ki, 2019-cü ilin büdcəsi həm investisiyayönümlü, həm də sosialyönümlü olacaq. Bütün sosial layihələr icra ediləcək.

Eyni zamanda, dövlət kapital qoyuluşu üçün kifayət qədər vəsait də nəzərdə tutulur. Ancaq ən vacib məsələ bu vəsaitdən səmərəli şəkildə istifadə edilməsidir. Əgər prioritetlər düzgün seçilərsə, ölkə qarşısında duran əsas məsələlərin həlli təmin edilər. Eyni zamanda, Dövlət İnvestisiya Proqramı iqtisadiyyatın real sektoruna xidmət göstərməli, eyni zamanda, bu günə qədər öz həllini tapmayan infrastruktur layihələrinin icrasına da istiqamətləndirilməlidir.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlər başçısının söylədiyi kimi, son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 13 noyabr Beynəlxalq Gözdən Əlillər Günüdür





# Dünyanı qəlbi ilə görənlər

Onlar üçün dünya bir rəngdədir, qaradır, hər yan zülmətə bürünüb. Amma onlar dünyaya gözləri ilə baxmırlar ki... Onlar bu dünyanı qəlbləri ilə görürlər. Onların nəzərləri ilə - ürək açıqlığı, qəlb genişliyi ilə baxanda dünya çox parlaq, rəngarəng, daha aydın görünür... Onlar insanları simalarından deyil, səslərindən tanıyır, duyur, eşidirlər...

### *O günün tarixçəsi...*

13 noyabr - Beynəlxalq Gözdən Əlillər Günü ilk tiflopedaqoqlardan biri, görməyənlər üçün relyefli əlifbanın müəllifi, gözdən əlillər üçün ilk təhsil müəssisələrinin yaradıcısı, məşhur fransalı xeyriyyəçi Valentin Qayuinin adı ilə bağlıdır. Yeni Dünya Səhiyyə Təşkilatı 13 noyabr 1745-ci ildə Fransanın Amyen şəhəri yaxınlığındakı Sen-Jüst kəndində, kasıb toxucu ailəsində anadan olan Valentinin doğum tarixini Beynəlxalq Gözdən Əlillər Günü elan edib.

XVIII əsrə qədər dünyada gözdən əlillər üçün təhsil müəssisəsi yox idi. Valentin Qayui ilk dəfə Fransada gözü dünya işığından məhrum olanların təhsili üçün xüsusi üsul yaradıb. O, 1784-cü ildə dünyada ilk dəfə Parisdə hökumətin və xeyriyyə cəmiyyətlərinin köməyi olmadan öz evində şəxsi vəsaiti hesabına kor uşaqlar üçün "işləyən korların emalatxanası"nı açıb və məktəbə kimsəsiz uşaqlar qəbul edilib.

### *Gözdən əlillər üçün yaradılan ilk kitablar...*

Valentin gözdən əlil uşaqların təlim və tərbiyəsinə elmi cəhətdən yanaşıb. Onun hazırladığı "unsial" adlanan xüsusi qabarıq şriftin köməyi ilə bu uşaqlara oxumağı öyrətmək və onlar üçün kitablar çap etmək mümkün olub. Uşaqlar həmin şriftlərlə mətn yığmaq bacarığına da yiyələniblər. Bundan başqa, Valentin Qayui gözdən əlillər üçün cihazlar, qabarıq aşkar dərsliklərin, coğrafiya xəritələri və qlobusların istehsalı üçün matrislər qurub. Gözdən əlillər üçün kitabların hazırlanması ideyası da ona məxsusdur.

Özünün ciddi maddi çətinlik çəkməsinə baxmayaraq, Valentin Qayui mətbəə yaradaraq qabarıq-xətti şriftlə gözdən əlillər üçün ilk kitablar çap edib. 1829-cu ildə isə Paris Milli İnstitutunun şagirdi Lui Brayl görmə qabiliyyəti olmayan uşaqlar üçün nöqtə-relyef şriftinin universal sistemini hazırlayıb və həmin sistem bütün dünyada yayılıb.

1803-cü ildə Rusiya imperatoru I Aleksandr Valentin Qayuinu Sankt-Peterburqda gözdən əlillər üçün tədris-tərbiyə müəssisəsi açmağa dəvət edib. 1807-ci ildə Sankt-Peterburqda gözdən əlillər üçün institutun ştat vahidi və büdcə vəsaiti təsdiq edilib.

Hazırda dünyada təxminən 124 milyon görmə qabiliyyəti olmayan insan yaşayır. Dünya Səhiyyə Təşkilatının hesablamalarına görə, 2020-ci ilə qədər onların sayı daha da arta bilər.

Azərbaycanda isə 320 min əlilin 40 min nəfərini tamamilə görməyənlər və zəif görənlər təşkil edir. 1981-ci il iyunun 1-dən Gözdən Əlillər Cəmiyyətinin tabeliyində Gözdən Əlillər üçün Respublika Kitabxanası fəaliyyətə başlayıb.

### *20 min nüsxə ədəbiyyat, 1200 nəfər daimi oxucu*

- Görmə şansınız olsaydı, kimi, yaxud nəyi görmək istəyərdiniz?

- Sizi (gülür). Telefonla danışanda səsinizdən çox maraqlı biri olduğunuzu hiss etdim. Adınız da özünüz kimi maraqlıdır.

Müsahibim Gözdən Əlillər üçün Respublika Kitabxanasının direktor müavini Tofiq Balayevdir. Bu gün onların günüdür. Bu günün qeyd edilməsi ətrafımızda bizdən fərqli insanların olduğunu bir daha xatırlatmağa imkan verir. Biz də onları xatırlatmaq üçün bu kitabxanaya yollandıq.

Kitabxanaya daxil olmamış hansı mühitlə qarşılaşacağımız bizi düşündürürdü. Telefonla söhbətləşdiyimiz Tofiq Balayevlə görüşüb öncə kitabxana haqqında məlumatlar alırıq.







Artıq 7 ildir burada işləyən Tofiq müəllimin sözlərinə görə, kitabxana 1994-cü ildən Mədəniyyət Nazirliyinin tabeliyinə keçib. Ümumilikdə 19 işçisi var. Kitabxananın vəzifəsi I və II qrup gözdən əlillərə kitabxana-informasiya xidməti göstərməkdir. Kitabxananın fondunu Brayl kitabları (xüsusi şriftlə yazılmış kitablar), audiokasetlər, CD-lər və dövri mətbuat, 20 min nüsxə ədəbiyyat təşkil edir. Kitabxananın təxminən 1200 nəfər daimi oxucusu var, onun da 150-si azyaşlıdır.

Oxucuların böyük əksəriyyətinin kasetləri oxutdurmaq üçün xüsusi və yaxud adi maqnitofonu var. Gözdən Əlillər Cəmiyyətində yaradılmış studiyada milli dildə kitablar yazılır, mətbəədə Brayl şrifti ilə Azərbaycan dilində kitablar çap olunur. Fonddakı kitablar Azərbaycan, rus və türk dillərindədir.

### *Bu il 23 gözdən əlil uşaq kollec və ali məktəblərə qəbul olunub*

Tofiq Balayev deyir ki, kitabxananın fəaliyyəti təkcə Bakı ilə məhdudlaşmır. Regionlardakı gözdən əlillər də unudulmayıb: "Onlar üçün də audiokitab nüsxələrinin sayı artırılaraq bölgələrdəki Gözdən Əlillər Cəmiyyətinin kitabxanalarına, ya da rayon mərkəzi kitabxanalarına göndərilir. Masallı, Lənkəran, Salyan, İsmayıllı kimi rayon mərkəzi kitabxanalarında gözdən əlillər guşəsi yaradılıb. Göndərdiyimiz kitablar kitabxanalara yerləşdirilir və istəyən götürüb istifadə edir. Çalışırıq ki, elektron kitabların sayını artıraq. Kitabxanada dərs vəsaitləri, 6-cı sinifdən yuxarı müəyyən dərs testləri də var".

Tofiq Balayevin sözlərinə görə, gözdən əlillər üçün internat məktəbində indi 307 uşaq təhsil alır ki, onların da əksəriyyəti kitabxanaya gəlib-gedir. Bu il 24 uşaq məktəbi bitirib. 23-ü kollec və ali məktəblərə qəbul olunub.

### *"İndi sahib olduqlarımı görmə şansına qurban verməréəm..."*

İş həyatını kənara qoyub bir az da Tofiq müəllimin uşaqlığı, məktəb illəri, ailəsi ilə bağlı söhbətləşmək qərarına gəldik.

Öyrəndik ki, 38 yaşı var. Gözdən əlil uşaqlar üçün Respublika İnternat orta məktəbi bitirəndən sonra Bakı Mədəni Maarif Kollecində Kitabxanaçılıq fakültəsini bitirib. Daha sonra Mədəniyyət və İncəsənət Universitetində Kulturologiya ixtisası üzrə təhsil alıb. Kitabxana onun həyatında dönüş nöqtəsi olub. Ailəlidir, 4 oğlu var. Hamısı da sağlamdır, gözdən əlil deyillər. Elə xanımı da.

"Beş görən oğlana dəyərəm", - deyən Tofiq Balayev özünü digər insanlardan heç də fərqləndirmir. Dediyinə görə, bacarığını, həyat tərzini digərlərindən daha yüksək hesab edir: "Valideynlərim dayıoğlu-bibiqızıdır. Mənim bu problemimi də qohumla evlənməyim ilə əlaqələndirirlər. Üç bacım var. İki bacımın görməsi yaxşıdır. Məndən balaca bacım da bu problemi yaşayır. Uşaq vaxtımdan öz ayaqlarım üzərində durmağa çalışmışam. Çox inadkar olmuşam. Hərdən düşünürəm, desələr ki, görəcəksən, amma sahib olduqlarını qurban verməlisən, onda razı olmaram. Çünki bunları çox çətinliklərlə əldə etmişəm. Həyatımdan çox razıyam".

### *"Məni bütün gözdən əlil insanlara nümunə kimi göstərirlər"*

Tofiq müəllim heç bir probleminin olmadığını deyir: "Balaca oğlum birinci sinfə təzə gedirdi. Gəldi mənə dedi ki, bəs uşaqlar sənin görmədiyini deyir. Mən də onlara cavab verdim ki, yox, atamın gözü görür. Həmişə motivasiyalı olmağa çalışıram. Əksər əlil insanlar evdə oturub özlərinə qapanırlar. Təbii ki, valideyndən çox şey asılıdır. Valideyn qoruyucu olarsa, uşaq da çox tənbəlləşir. Ancaq valideyni də qınamaq olmur. Neyləsin?! Qorxur. Mən 9-cu sinifdə oxuyanda Keşlədən Gənclikdəki məktəbə getmək üçün iki avtobus dəyişməli idim. Etiraz etdim ki, artıq məktəbə özüm gedəcəm, utanıram, böyük oğlanam. Düz 6 ay evdəkilər mənimlə mübahisə etdilər ki, olmaz, belə gedə bilməzsən. Yolda səni maşın vurar. Nəhayət, istəyimə nail oldum. Çətin də olsa, məktəbə tək gedib-gəldim. Çox sərbəst olmuşam. Görmürəm deyib yerində oturan şəxs heç vaxt irəliləyə bilməz. İndi məni bütün gözdən əlil insanlara nümunə göstərirlər".

### *"Hərdən hətta sağlam insanlardan mənə paxıllıq edənlər olur"*

Müsahibim ictimai nəqliyyatdan istifadə edəndə müəyyən qədər çətinliklərlə qarşılaşsa da, artıq Bakının xəritəsini əzbərlədiyini deyir. Sözlərinə görə, maşın yolunu keçəndə ağacından istifadə edir, bu, ona kömək olur:

"Hərdən insanlar elə bilir ki, yalandan edirəm, əslində görürəm. Bəzən əldə etdiyim nailiyyətlərə kinayə ilə yanaşırlar ki, bunun gözü görmür, amma gör nələrə nail olub. Paxıllıq edənlər də olur. Mən də deyirəm ki, paxıllıq etməkdənsə siz də cəhd edin. Düşünürəm ki, bəlkə də görsəydim bu səviyyəyə gəlib çatmazdım. Hər halda görməmək mənə əngəl deyil".

### *"Yuxuda da hər tərəf qaranlıqdır..."*

Onu da qeyd edək ki, 2015-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin maliyyə dəstəyi ilə gözdən əlil insanlar üçün "Qurani-Kərim" kitabı Brayl əlifbasına uyğunlaşdırılıb.

Tofiq müəllimə məni həmişə maraqlandıran bir sualı ünvanladım. Ondan yuxu görüb-görmədiyini soruşdum. Cavabı isə belə oldu:

- Görürəm, amma yuxuda da koram. Yuxuda görürəm ki, maşın sürürəm, amma yolu görmürəm. Hiss edirəm maşın sürdüyümü, amma hər yer qaranlıqdır.

### *"Anam qorxurdu ki, bizi əlindən alıb internat məktəbə qoyarlar..."*

Tofiq müəllimlə söhbəti başa vurduqdan sonra oxu zalına daxil olduq. Biz getdiyimiz saatda kitabxanada o qədər də çox oxucu yox idi. Həm də Tofiq müəllimin dediyinə görə, əlillərin çoxu kitabı aparıb evdə oxuyur.

Oxucuların gözləri görmədiyi üçün onlar əsəri duyaraq oxuyurlar. Kimisi bunu qulaqcıqlar vasitəsilə həyata keçirir, kimisi də Brayl əlifbası ilə barmaqlarının köməyi ilə...

Kitabxananın ilk oxucularından olan, 10 ildir burada işləyən 34 yaşlı Sevinc Şamilova da anadangəlmə görmə qüsurludur. Onun da valideynləri qohum evliliyi qurub. Özü kimi görmə problemi olan bir qardaşı da var. Sevincin anası uşaqlarını əllərindən alıb internata qoyarlar deyə qorxusundan onların məktəbə getmələrinə razı olmayıb. Sevinc 16 yaşında Gözdən əlil uşaqlar üçün Respublika İnternat orta məktəbində oxumaq üçün müraciət edib: "Məktəbdə mənə dedilər ki, sənin yaşında olanlar məktəbi bitirir, sən hələ indi gəlirsən. Buna baxmayaraq, qiyabi təhsil ala biləcəyimi söylədilər. Amma test edib birdən-birə 6-cı sinfə götürdülər. 6-cı sinifdən 9-a qədər dərslikləri tapıb hazırlaşdım. Brayl əlifbasını bir ayın içində öyrəndim. 1-dən 11-ə kimi olan dərs proqramını mənimsəmək istəyirdim. 9-cu sinifə kimi oxudum, şəhadətnamə alıb texnikuma sənəd verdim. Bakı Mədəni Maarif Kollecinin Kitabxanaçılıq fakültəsinə qəbul olundum. Orada təhsil ala-ala burada da işə düzəldim".

### *"Belə yaşamaq çətin olsa da, buna öyrəşməkdən başqa çarəm yox idi"*

Heç nə görmədən yaşamaq çətin olsa da, artıq buna öyrəşdiyini deyən Sevinc həm də ailəlidir. Yaş yarımlıq sağlam bir oğlu var:

"Görmə problemli olduğumu özümə çox kompleks edirəm. Amma məcburam ki, öyrəşim. Neyləyim, həyat bunu tələb edir. İndi gözlərimdə bir balaca işıltı var. Nə qədər müalicə etdirdim, əməliyyat olundum, amma yenə də bir xeyiri olmur. O işıltı da tədricən gedir. İşə tək gəlib-gedirəm. Çətinliklərim olur, amma həmişə gəlib-getdiyim yer olduğu üçün artıq yolun istiqamətini tanıyıram. İşə gələndə uşağa anam baxır. Evdə olanda anamın, həyat yoldaşımın köməyi ilə uşağın nəyinəsə kömək edirəm".

Qardaşının 35 yaşı var. Əvvəl musiqi ilə məşğul olurdu. İndi heç nəyə həvəsi yoxdur. Evə qapanıb. İkinci dəfə ailə qurub. Həyat yoldaşı da özü kimi görmə əngəllidir.

### *"Uşağa yemək verəndə..."*

Sevinc deyir ki, övladının görməsində problem yoxdur. Oğlu dünyaya gələndə ilk öyrənmək istədiyi onun görüb-görməməsi olub. Buna görə çox stres keçirirmiş:

"Gözümdə çəplik də var. Uşağa yemək verəndə qaşığı fərqli yönə aparıram. Uşaq özü ağzını gətirib qaşığı tutur. Özlüyümdə pis oluram ki, mən niyə balama baxa bilmirəm, bəlkə mən də görə bilsəydim... (kövrəlir.) Gözümdəki o bir damcı işıltı sayəsində təxmin edirəm ki, sarışındır, atasına bənzəyir. Amma tam görmürəm. Çox istərdim balamı aydın görüm".

### *"Övladımın hüquqşünas olmasını istəyərəm"*

Vaxtilə hüquqşünas olmaq istəyən Sevinc arzularının yarımçıq qaldığını deyir: "Həyata keçirmək istədiyim o qədər arzum var, amma indi onlar çox gec gerçəkləşir, ona görə buna çatanda artıq o həvəsdə də olmursan. Fikirləşirsən ki, yəni, mən o vaxt bunu arzulayırdım? İndi də övladımın hüquqşünas olmasını istəyərəm".

Görməməsinə baxmayaraq, hər şeyə şükür edən müsahibim deyir ki, Allah görməni ondan alsa da, əvəzində yaxşı ağıl verib: "Görsəydim, bəlkə də, bəziləri kimi, mən də lazım olmayan işlərlə məşğul olardım. İndi pis-yaxşı özümü idarə edirəm. O dərəcədə pis gündə yaşamıram deyə çox şükür edirəm".

### *"Bizə qüsurlu deyənlərin özlərində daha çox qüsur olur"*

Sevinc bəzən ətrafdan mənfi reaksiyalar görəndə çox pis olduğunu deyir. Hətta elə olur ki, aqressiv cavab verir:

"Düşünürəm ki, məndə bu qüsur var, amma mənə qarşı bu reaksiyanı verən şəxsi araşdırsan, onda o qədər qüsur aşkarlanar ki... Allah hər kəsi eyni yaratmır. Bəzilərindən bir şeyi alır, digərinə bir şeyi verir. Görmə əngəlli, ümumiyyətlə, digər fiziki qüsurlu uşaqların valideynləri də həssas olmalıdırlar. Valideyn gərək uşağın dərdini, istəyini soruşsun. Bəlkə onda sağlam adamın bacarmadığı bir istedad, ideya var".

Bəli, onların öz dünyası var: daha aydın, daha işıqlı...

***Fərizə ƏHMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Cəzaçəkmə müəssisələrində hazırlanan məhsullardan və məhkumların əl işlərindən ibarət sərgi açılıb



"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikasının Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamından irəli gələn tələblərə əsasən, penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi prosesinin daha da genişləndirilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpası və yeni sahələrin yaradılması imkanlarının araşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 12-də 6 saylı cəzaçəkmə müəssisəsində Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş, cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan və məhkumların əl işlərindən ibarət sərgi məhz bu sərəncamda nəzərə tutulmuş tədbirlərin davamıdır.

Milli Məclisin deputatlarının, dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, Ədliyyə Nazirliyinin məsul əməkdaşlarının, Penitensiar xidmətin cəzaşəkmə müəssisələrinin və istintaq təcridxanalarının rəislərinin iştirakı ilə keçirilən sərgidə nümayiş olunan məhkumların əl işləri ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Sərgidə cəzaçəkmə müəssisələrində daha çox məhkumu ictimai faydalı əməyə cəlb etmək, istehsalat sahələrini genişləndirmək, eyni zamanda, cəza çəkənləri müxtəlif peşə və məşğuliyyət sahələrinə yönəltmək, onlarda əmək vərdişləri formalaşdırmaq, mədəniyyət və incəsənətə maraq oyatmaq üçün Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən mühüm işlərin həyata keçirildiyi vurğulanıb.

Məhkumların ictimai faydalı əməyə cəlb edilməsi azadlığa çıxdıqdan sonra onların cəmiyyətə daha tez adaptasiya olunmasına zəmin yaradır. Təsadüfi deyil ki, məhkumlar üçün həm maddi, həm də mənəvi-psixoloji əhəmiyyət daşıyan ictimai faydalı əməyin təşkili məqsədilə mövcud istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin yaradılması prosesi son vaxtlar daha da sürətlənib. Bu məqsədlə həmin müəssisələrdə yeni istehsalat sahələrinin yaradılmasına və bu işə sahibkarların cəlb edilməsinə dair zəruri tədbirlər həyata keçirilib.

Penitensiar xidmətin 4 saylı qadın cəzaçəkmə müəssisəsində toxuculuq, tikiş və xalçaçılıq üzrə istehsalat sahələrini inkişaf etdirmək üçün yeni xana dəzgahlarının quraşdırılması və işləyən məhkumların sayının artırılması buna bariz nümunədir.

Təqdirəlayiq haldır ki, tərbiyə müəssisəsində cəza çəkən yeniyetmələri yüngül əməyə cəlb etmək məqsədilə Penitensiar xidmətin təşəbbüsü və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dəstəyi ilə müəssisədə heykəltəraşlıq dərslərinin tədrisinə başlanılıb.

Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş, cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan ibarət sərgi istedadlı məhkumların ərsəyə gətirdikləri əl işlərinə marağın daha da artmasında, eyni zamanda, cəzaçəkmə müəssisələrindəki istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin yaradılması prosesinə yerli və xarici sahibkarların cəlb edilməsində mühüm rol oynayacaq.

Penitensiar xidmət tərəfindən bu istiqamətdə lazımi tədbirlərin gələcəkdə də davam etdirilməsi, müxtəlif sahələr üzrə fəaliyyət göstərən dövlət qurumları və özəl təşkilatlarla əməkdaşlıq çərçivəsində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

# Azərbaycan Ordusunda komanda-qərargah hərb oyunları başlayıb





Azərbaycan Ordusunun 2018-ci ilin hazırlıq planına əsasən, noyabrın 12-də komanda-qərargah hərb oyunları (KQHO) başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş əməliyyatlarında idarəetmə orqanlarının qarşılıqlı fəaliyyət səviyyəsinin yoxlanılması və təkmilləşdirilməsi məqsədilə keçirilən hərb oyunlarına strateji, əməliyyat, əməliyyat-taktiki və taktiki idarəetmə orqanları, qoşun növləri və qismləri, eləcə də xüsusi təyinatlı qüvvələr cəlb edilib.

KQHO-da kosmik texnologiyaların tətbiqi ilə qoşunların fasiləsiz idarə olunmasını təmin etmək üçün məlumatların sürətli ötürülməsi, əməliyyat şəraitinə uyğun qərarların dərhal qəbul edilməsi və digər vərdişlər icra olunacaq.

# Melburnda Azərbaycan bayrağının qaldırılması mərasimi keçirilib

9 noyabr - Azərbaycanın Dövlət Bayrağı Günü münasibətilə Avstraliyanın Melburn şəhərinin mərkəzində yerləşən Federasiya meydanında Azərbaycan dövlət bayrağının qaldırılması mərasimi təşkil edilib.

Azərbaycanın Avstraliyadakı səfirliyinin təşəbbüsü, eləcə də Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyası və Melburndakı Azərbaycan icmasının təşkilatçılığı ilə keçirilən tədbirdə Melburn şəhərində yaşayan həmvətənlərimiz, burada təhsil alan azərbaycanlı tələbələr və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasim Azərbaycanın Dövlət himninin sədaları altında dövlət bayrağımızın Federasiya meydanında ucaldılması ilə başlayıb. Ümumilikdə həmin gün şəhərin mərkəzi meydanında dörd Azərbaycan bayrağı ucaldılıb ki, bu bayraqlar da gün ərzində Avstraliyanın dövlət bayraqları ilə bərabər dalğalanıb.

Tədbirdə çıxış edən ölkəmizin Avstraliyadakı müvəqqəti işlər vəkili Elcan Həbibzadə Azərbaycan hökuməti adından Dövlət Bayrağı Günü münasibətilə soydaşlarımızı təbrik edib və mərasimin təşkilində əməyi və dəstəyi olan hər kəsə təşəkkürünü çatdırıb. Azərbaycan dövlət bayrağının qaldırılması mərasiminin Avstraliyada ilk dəfə keçirildiyini qeyd edən diplomat bunun iki ölkənin əlaqələrinin tarixində əlamətdar hadisə olduğunu vurğulayıb və belə tədbirlərin bundan sonra da xoş ənənəyə çevriləcəyinə ümidvar olduğunu qeyd edib. Elcan Həbibzadə indiki dövlət bayrağının 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edildiyini xatırladaraq, Prezident İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncama əsasən hər il 9 noyabrın ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd edildiyini bildirib. Diplomat üçrəngli bayrağımızın bütün dünyada yaşayan azərbaycanlılar üçün dövlətçiliyimizin və suverenliyimizin rəmzi olduğunu vurğulayıb. Eyni zamanda, o, dövlət başçısının digər sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildiyini qeyd edərək, bugünkü mərasimin cümhuriyyətimizin 100 illiyi çərçivəsində keçirildiyini qeyd edib və Bayraq Gününün əhəmiyyətindən danışıb.

Mərasimdə digər çıxış edənlər - Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyası idarə heyətinin üzvü Tatyana Zemlinskaya, assosiasiyanın fəalları Nicat Hacıyev, Vəfa Sadıqzadə, Səbinə Əliyeva bayram münasibətilə təbriklərini çatdıraraq, müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımızın dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlının qürur mənbəyinə çevrildiyini vurğulayıblar. Tarixi vətənimiz Azərbaycanın sosial-iqtisadi inkişaf tempinə görə bölgənin lider dövlətinə çevrilməsinin ölkə hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlının qəlbində fərəh hissi doğurduğunu qeyd ediblər.

Qeyd edək ki, paytaxtı Melburn şəhəri olan Viktoriya ştatında çoxlu sayda soydaşımız yaşayır. Belə ki, Melburnda "Viktoriya-Azərbaycan Mədəniyyət Assosiasiyası" diaspor təşkilatı, eləcə də "Azərbaycan Evi" fəaliyyət göstərir. Viktoriyada yaşayan Azərbaycan icması tariximizin, mədəniyyətimizin və incəsənətimizin Avstraliyada təbliğinə xüsusi töhfələr verir.

***AZƏRTAC***

# Los Ancelesdə "Əbədi Ezamiyyət" filminin ABŞ premyerası keçirilib

Kaliforniyanın Los Anceles şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş geniş tədbir keçirilib.

Azərbaycanın Los Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, tədbirdə Heydər Əliyev Fondunun dəstəyilə Bakı Media Mərkəzinin çəkdiyi və Arzu Əliyevanın baş prodüseri olduğu, 1919-cu ildə Paris Sülh Konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin keşməkeşli taleyindən bəhs edən "Əbədi Ezamiyyət" filmi nümayiş etdirilib.

Azərbaycanın Los Ancelesdəki baş konsulluğunun Los Ancelesin ən böyük və ən qədim kilsələrindən olan İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsində keçirdiyi tədbirdə seçkili orqanların nümayəndələri, xarici ölkələrin baş konsulları, müxtəlif icmaların üzvləri, tanınmış elm və mədəniyyət xadimləri və jurnalistlər iştirak ediblər.

Tədbirdə çıxış edən kilsənin ictimai əlaqələr üzrə direktoru Mət Bol bu cür mühüm tədbirə evsahibliyi etdiklərindən məmnun olduğunu bildirib.

Azərbaycanın Los Ancelesdəki baş konsulu və Los Anceles konsulluq korpusunun duayeni Nəsimi Ağayev çıxışında 100 il əvvəl, 1918-ci il 28 may tarixində Azərbaycan xalqının tariximizin ilk respublikası olan Xalq Cümhuriyyətini yaratdığını qeyd edib. Bu respublikanın müsəlman dünyasında ilk dünyəvi və demokratik dövlət, eləcə də qadınlara səsvermə hüququ verən ilk müsəlman ölkəsi kimi tarixə düşdüyünü bildirib.

Azərbaycanın müstəqillik tarixi haqqında ətraflı məlumat verən baş konsul bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regionun ən güclü iqtisadiyyata malik dövlətinə çevrildiyini, qlobal önəmə malik enerji və nəqliyyat layihələri həyata keçirdiyini diqqətə çatdırıb. N.Ağayev Azərbaycanda uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını, insanların öz etiqadlarını, adət-ənənələrini sərbəst şəkildə həyata keçirdiklərini bildirib.

"Əbədi Ezamiyyət" filmi haqda məlumat verən N.Ağayev ilk azərbaycanlı diplomatların ölkəmizin müstəqilliyinin tanıdılması sahəsində göstərdikləri fədakarlıqları yüksək peşəkarlıqla tamaşaçıya çatdıran bu filmin böyük sənət əsəri olduğunu qeyd edib.

